QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 174 (5894) **24 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Dövlət başçısı tərəfindən verilən qərarlar insanların firavanlığını təmin edir



*Prezident İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*

Səh 2

3

**DSX: Sərhədçi zabit ona bıçaqla xəsarət yetirən şəxsi tərk-silah edərək yaxalayıb**



4

**Əli Əhmədov İsmayıllı şəhərində Qarabağ müharibəsi veteranları ilə görüşüb**



5

**Los-Anceles səmalarında və küçələrində Qarabağ həqiqətləri**



# Dövlət başçısı tərəfindən verilən qərarlar insanların firavanlığını təmin edir

*Prezident İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*



**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə prioritet istiqamət verməklə həm iqtisadi, həm sosial və həm də siyasi proseslərdə önəmli mövqe qazanıb.**

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Bu, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda, ilk olaraq, məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu dəfələrlə göstərib. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək iqtidarındadır. Hər bir Azərbaycan vətəndaşı ölkənin sosial-iqtisadi inkişafının dinamik xarakter aldığını, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işlərinin aparıldığının şahidi olur. Çoxlu sayda sosial obyektlər istifadəyə verilir, yol infrastrukturu yenilənir, zavodlar, fabriklər tikilir, iş yerləri açılır, maaş və müavinətlər dəfələrlə artıb, ən əsası, əhalinin yaşayış səviyyəsi durmadan yaxşılaşır. Bu, Cənab Prezidentin uğurlu daxili siyasətinin məntiqi nəticəsidir.

## İQTİSADİ CƏHƏTDƏN GÜCLÜ AZƏRBAYCAN İSTƏNİLƏN ÇƏTİNLİKLƏRİ ASANLIQLA ARADAN QALDIRMAĞA QADİR OLAN DÖVLƏTDİR

Şamaxı, Ağsu və İsmayıllı rayonlarında zəlzələ baş verən zaman dövlətmiz tərəfindən ciddi addımların atılması dövlətin hər bir vətəndaşın yanında istənilən zaman olduğunu bir daha təsdiq etmiş oldu. Zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarla fərdi yaşayış evi qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərə ziyan dəymişdi. Təbii fəlakətdən dərhal sonra, görülən təxirəsalınmaz tədbirlər nəticəsində, adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edildi, zərər çəkmiş əhaliyə ilkin yardım göstərildi. Cənab Prezident Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədilə baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, ilkin olaraq, 2 (iki) milyon manat ayrıldı.

Zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması istiqamətində, hazırda da zəruri tədbirlər görülür. Dövlət başçısının 12 sentyabr 2019-cu il tarixli Sərəncamı ilə baş vermiş zəlzələ nəticəsində, Şamaxı rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 (iki) milyon manat Şamaxı rayon icra hakimiyyətinə ayrılıb. Dövlət başçısının daha bir - 13 sentyabr 2019-cu il tarixli Sərəncamı ilə baş vermiş zəlzələ nəticəsində, Ağsu rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 (iki) milyon manat Ağsu rayon icra hakimiyyətinə ayrılıb.

Əlbəttə ki, dövlətin öz vətəndaşının yanında olması bütün çətinliklərin aradan qaldırılmasında önəmlidir. İqtisadi cəhətdən güclü dövlət olan Azərbaycana dəymiş ziyanı asanlıqla aradan qaldırır. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "...heç bir təbii fəlakət bizi sarsıda bilməz. Azərbaycan dövləti güclü dövlətdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin zəlzələdən əziyyət çəkən sakinlərlə görüşü öz vətəndaşının yanında istənilən zaman olduğunu bir daha təsdiqləmiş oldu. Zəlzələ nəticəsində, zərərçəkən vətəndaşlar dövlətimizin başçısının diqqət və qayğısını bir daha görmüş oldular. Dövlət başçısının hər bir vətəndaşın çətin anında yanında olmasından insanlar şərəf duyur və xalqımızı xoşbəxt gələcəyə aparan Lider ətrafında daha da sıx birləşiblər.

## "MƏN ÇOX ŞADAM Kİ, YARARSIZ, YƏNİ QƏZALI BİNALARIN DEMƏK OLAR, YARISI ARTIQ YENİDƏN TİKİLƏRƏK İSTİFADƏYƏ VERİLİB"

Bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri və zəlzələdən zərər çəkmiş sakinlərlə görüşü, bir daha, dövlətin öz vətəndaşına olan münasibətinin təzahürüdür. Mehriban Əliyeva Şamaxı rayonunun Muğanlı kənd sakini Zamiq Səfərova məxsus, zəlzələ nəticəsində, qəzalı vəziyyətə düşmüş evin yerində inşa olunan evə baxıb. Səfərovlar ailəsi ən çətin anlarda onların yanında olmalarına və zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması üçün göstərdikləri köməyə görə, Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiribdi. Mehriban xanım Əliyeva "Fevralın 5-də zəlzələ oldu, 7-də Şamaxıya Prezident gəldi və vəziyyətlə tanış oldu" deyərək, dövlət başçısının dərhal göstərişlər verdiyini və maliyyə vəsaiti ayrıldığının diqqətə çatdırıb: "Mən çox şadam ki, yararsız, yəni qəzalı binaların demək olar, yarısı artıq yenidən tikilərək istifadəyə verilib".

Qeyd etdiyimiz kimi, bu ilin fevralında baş verən zəlzələ İsmayıllı rayonuna da ziyan vurmuş oldu və dövlətimizin başçısı rayonda zəlzələnin ziyan vurduğu evlərin bərpası ilə bağlı tapşırıqlarını vermişdi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti İsmayıllı rayonuna səfəri zamanı Diyallı kənd sakini Sədiqə Orucovaya məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən yeni evə gələrək, burada yaradılan şəraitlə tanış olub. "Mən Cənab Prezidentin tapşırığı ilə Şamaxı və İsmayıllı rayonlarına gəlmişəm. Çox şadam ki, bizim vətəndaşlar belə qısa bir zamanda yeni, tam rahat, hər bir şəraitlə təmin olunmuş evdə yaşayırlar" deyən Mehriban xanım Əliyeva bir çox evlərin, demək olar ki, yenidən tikildiyini vurğulayıb: "2 minə yaxın evdə bərpa işləri aparılır. Mən çox şadam ki, işlərin demək olar, yarısı tamamlanıb. Soydaşlarımız artıq yeni, daha rahat, daha geniş evlərdə yaşayırlar. Bu işlərdə Heydər Əliyev Fondu da çox fəaldır. Heydər Əliyev Fondunun dəstəyi ilə 3 rayonda 87 fərdi ev sakinlər üçün tikilir, hər bir rayonun kəndində yeni məktəb tikilib istifadəyə verilir, tibb məntəqələrində bərpa işləri aparılır, eyni zamanda, Şamaxıda çoxmərtəbəli 170 mənzillik 3 yeni bina inşa olunur. Yəni bu, dövlətin öz vətəndaşına göstərdiyi qayğının təzahürüdür. Azərbaycan dövlətinin siyasəti hər zaman sosialyönümlü olub və bu addımlar davam edəcək. Həm Cənab Prezident, həm də hökumət tərəfindən atılan addımların əsas məqsədi Azərbaycan xalqının, Azərbaycanda yaşayan hər bir vətəndaşın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, onları narahat edən problemlərin aradan qaldırılmasıdır. Uzun illərdir ki, bu istiqamətdə ardıcıl işlər aparılır".

## "AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASƏTİ HƏR ZAMAN SOSİALYÖNÜMLÜ OLUB VƏ BU ADDIMLAR DAVAM EDƏCƏK"

Birinci vitse-prezident Mehriban Xanım Əliyeva ölkədə görülən işlərdən danışarkən, regionların sosial-iqtisadi inkişafı proqramının əhəmiyyətini vurğulayıb, bu gün bütün rayonlarımızın abadlaşdığını, yeni infrastrukturla təmin edildiyini, yeni iş yerlərinin yaradıldığını diqqətə çatdırıb: "2004-cü ildən regionların sosial-iqtisadi inkişafı proqramı həyata keçirilir. Biz keçmişə nəzər salsaq, görərik ki, bütün ölkə üzrə, bütün rayonlarımız, regionlarımız, qəsəbələrimiz, kəndlərimiz nə qədər abadlaşıb. Yeni infrastruktur yaradılıb, yeni yollar salınıb, 640 yeni müasir xəstəxana tikilib, ölkədə mövcud olan 5 min məktəbdən 4 minə yaxını ya bərpa olunub, ya da yenidən inşa edilib. Yəni bu, bütün istiqamətlərdə aparılan işlərdir. Regionlarda həm sənaye parkları, həm də aqroparklar salınır. Bu, öz növbəsində, yeni iş yerlərinin açılmasıdır, əhalinin məşğulluğudur. Ona görə, hesab edirəm ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək. Əlbəttə, bu işlər Azərbaycanın gələcək inkişafına, Azərbaycan xalqının yaşayış şəraitinin daha da yaxşılaşmasına xidmət edəcək".

***Nəzakət ƏLƏDDİNQIZI***



## Mehriban Əliyeva: "Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının (IAEA 2019) iştirakçılarına müraciət ünvanlayıb. SİA-nın məlumatına görə, müraciəti konfransın açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub. Müraciətdə bildirilir: "Hörmətli konfrans iştirakçıları, əziz qonaqlar!

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının (IAEA 2019) açılışı münasibətilə səmimi qəlbdən salamlayıram. Belə bir mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm. Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir".

Müraciətdə daha sonra deyilir ki, qiymətləndirmə və qərar vermə fərdi və institusional həll yolları mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcək.

Həmçinin qeyd edilir ki, Azərbaycan təhsil sistemində son illərdə bir sıra uğurlar qazanıb: "Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə eyni zamanda beynəlxalq qiymətləndirmənin prinsipinlərinə əsaslanaraq lazımi araşdırmalar aparılıb və bu istiqamətdə normativ hüquqi baza təkmilləşdirilib. Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınız da qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr, yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaq. Hamıya can sağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram".

## Azərbaycan-Argentina münasibətlərinə dair müzakirələr aparılıb

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu-York şəhərində BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Argentinanın Xarici İşlər və Etiqad naziri Xorxe Fori ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Argentina arasında əlaqələrin cari vəziyyətindən razılıq ifadə olunub. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparılıb. Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi məsələlərini müzakirə ediblər.



Tərəflər, həmçinin iki ölkə arasında həyata keçirilən yüksək səviyyəli rəsmilərin qarşılıqlı səfərlərinin münasibətlərin inkişaf etdirilməsi baxımından önəmini vurğulayıblar. Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatının bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək Zirvə görüşündə Argentina nümayəndə heyətinin iştirakının məmnuniyyət doğuracağını həmkarının diqqətinə çatdırıb. Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Sinxua: "Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər"

Çin kütləvi informasiya vasitələri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini diqqətdə saxlayıb. AZƏRTAC xəbər verir ki, ölkənin əsas media qurumlarından milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası (CCTV), rəsmi "Renmin Ribao" qəzeti, digər populyar xəbər saytları mövzu ilə bağlı Çin, ingilis və rus dillərində dəfələrlə reportajlar və xəbərlər, geniş məqalələr hazırlayıblar.




Sinxua agentliyinin "Diqqət mərkəzində: Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər" başlıqlı reportajında Prezident İlham Əliyevin Çin qanunverici orqanının rəhbəri Li Canşu ilə görüşündə iki ölkə arasında münasibətlərin sürətlə inkişafı ilə bağlı səsləndirdiyi fikirlərə geniş yer verilib.

Reportajda, həmçinin nümayəndə heyətinin Milli Məclisin sədri Oqtay Əsədov və Baş Nazir Novruz Məmmədov ilə görüşlərindən, ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarətindən, Heydər Əliyev Mərkəzi və xalça muzeyi ilə tanışlığından söz açılır.

Çin KİV-lərinin mövzu ilə bağlı materiallarında Li Canşunun sözlərinə istinadla qeyd olunur ki, Çin nümayəndə heyətinin Bakıya səfəri dövlət başçılarının Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafı ilə bağlı əldə etdiyi razılaşmaların icrasına və qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşməsinə dəstək məqsədi daşıyır.

Li Canşunun "Hər bir ölkənin nadir tarixi, milli şəraiti və mədəniyyəti var. Ona görə də fərqli sivilizasiyalar harmoniyalı şəkildə yaşamalı və bir-birindən öyrənməlidir" fikrini vurğulayan Çin KİV-ləri yenə Çin rəsmisinə istinadla yazır ki, Ümumçin Xalq Nümayəndələri Yığıncağı Azərbaycanın Milli Məclisi ilə xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin və mübadilənin inkişafı istiqamətində əməkdaşlıqda maraqlıdır.

Materiallarda iki ölkə arasında iqtisadi əlaqələrdən də söz açılaraq bildirilir ki, Li Canşu Baş Nazir Novruz Məmmədov ilə görüşdə Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycanın "Bir kəmər, bir yol" boyunca vacib ölkə olduğunu deyib. Daimi Komitənin sədri ölkəsinin Azərbaycan ilə iqtisadi və ticari əməkdaşlığı dərinləşdirməyə, "Bir kəmər, bir yol" strategiyasının icrasında əməkdaşlığa hazır olduğunu deyib.

## DSX: Sərhədçi zabit ona bıçaqla xəsarət yetirən şəxsi tərk-silah edərək yaxalayıb



Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 20-də saat 21:05 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad-Yardımlı avtomobil yolunda Buravar kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində iki nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib.

Şübhəli şəxs gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən ona "Dayan" əmri verilib, lakin o, əmrə tabe olmayaraq ərazidən uzaqlaşmağa çalışıb. Sərhəd naryadı tərəfindən yaxalanması zamanı şübhəli şəxs müqavimət göstərib, baş leytenant Allahverdi İsmayılova bıçaqla xəsarət yetirib. Buna baxmayaraq, sərhədçi zabit şücaət nümayiş etdirib, cinayətkarı tərk-silah edərək saxlayıb.



Hadisə zamanı xəsarət almış sərhədçiyə təxirəsalınmaz tibbi yardım göstərilib, vəziyyəti qənaətbəxşdir.

Saxlanılan şəxsin 1975-ci il təvəllüdlü Cəlilabad rayon sakini Əliyev Elşən Dövlət oğlu olması müəyyənləşdirilib. Əraziyə atılmış bağlamaya baxış zamanı içərisində 1 kiloqram 125 qram marixuana, 1 kiloqram 10 qram tiryək və 450 qram heroin narkotik vasitə aşkarlanaraq götürülüb.

İdarə etdiyi avtomobil ilə hadisə yerindən qaçmış digər şəxsin saxlanılması istiqamətində təxirəsalınmaz əməliyyat-qoşun tədbirləri həyata keçirilib, ərazi dərhal qapadılaraq ətrafda axtarış aparılıb. Nəticədə hadisə yerindən qaçmış şəxs Cəlilabad rayonunun Buravar kəndinin yaxınlığında saxlanılıb. Həmin şəxsin 1979-cu il təvəllüdlü Naxçıvan Muxtar Respublikası, Babək rayon sakini Quliyev Samir Vidadi oğlu olması müəyyənləşdirilib. Avtomobilin içərisindən 55 qram tiryək və şəxsi əşyalar aşkarlanaraq götürülüb. Fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Yeni Azərbaycan Partiyasının Şirvan bölgəsi üzrə rayon təşkilatlarının ərazi ilk təşkilat sədrlərinin iştirakı ilə İsmayıllıda müşavirə keçirilib








***Sentyabrın 21-də İsmayıllı şəhərində Azərbaycan Respublikası Baş nazirinin müavini,Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun sədrliyi ilə YAP-ın İsmayıllı, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir və Şamaxı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.***

Müşavirədən öncə Azərbaycan Respublikası Baş nazirinin müavini,YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olub.

Müşavirədə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini,YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib ki, artıq bir neçə regionda Yeni Azərbaycan Partiyasının ilk təşkilat sədrləri ilə görüşlər keçirilib: "Bundan sonra da belə görüşləri davam etdirmək niyyətindəyik. Hesab edirik ki, partiyanın üzvləri arasında partiya işinin gücləndirilməsi, partiya ünsiyyətinin möhkəmləndirilməsi, bütövlükdə işin səmərəliliyinin artırılması bir çox sahədə müəyyən tədbirlərin həyata keçirilməsini tələb etdiyi kimi, eyni zamanda partiyanın ilk təşkilatlarının da fəaliyyətinin gücləndirilməsini vacib hesab edirik".

YAP-ın sıralarında 750 minə yaxın Azərbaycan vətəndaşı birləşdiyini diqqətə çatdıran Baş nazirin müavini bildirib ki, YAP-ın üzvləri 8 minə yaxın ilk təşkilatda partiyanın sıralarında cəmləşib: "Biz istəyirik ki, YAP-ın şəhər və rayon təşkilatlarının ilk təşkilatları, özəl təşkilatları daha səmərəli, daha yaxşı iş qursunlar və bütövlükdə partiyanın fəaliyyətinin daha da gücləndirilməsinə öz töhfələrini vermiş olsunlar. Biz bu gün qürur duya bilərik ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyərək, YAP-ın sıralarında birləşərək Azərbaycanın möhtəşəm bir mərhələnin keçirilməsinə töhfələrimizi verə bilmişik. Biz sevinirik ki, bu gün Azərbaycan sözün həqiqi mənasında möhtəşəm bir dövlətə çevrilib, Azərbaycanın iqtisadiyyatı inkişaf edib. Ölkəmizin bütün sahələrində böyük nailiyyətlər əldə edilib. Azərbaycanın siması köklü surətdə dəyişib. Həyatımızın yaxşılaşması istiqamətində böyük layihələr həyata keçirilib, insanların həyat səviyyəsi yaxşılaşıb, ölkəmizin beynəlxalq imici ciddi şəkildə yüksəlib və beynəlxalq əlaqələrimiz genişlənib. Azərbaycan beynəlxalq layihələrin həyata keçirilməsində çox əhəmiyyətli rol oynayan dövlətlərdən biri kimi qəbul olunur. Eyni zamanda Azərbaycanın daxilindəki sabitlik, əmin-amanlıq bizim ölkəmizlə əlaqədar bütün dünya birliyinin və beynəlxalq təşkilatların birmənalı şəkildə etiraf etdiyi ən başlıca xüsusiyyətlərdən biridir. Hər bir dövlətin vətəndaş qarşısında yerinə yetirməli olduğu vəzifələrdən biri də vətəndaşın təhlükəsizliyinin təmin edilməsidir. Bu, dövlətin öz üzərinə götürdüyü ən başlıca vəzifələrdən və missiyalardan birdir. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində vətəndaşın təhlükəsizliyinin təmin edilməsi, ölkənin sabitliyinin, əmin-amanlığının bərqərar olunması ilə əlaqədar əzəmətli bir addım atılıb və möhtəşəm bir fundament qoyulub. Bu gün Azərbaycan bütün parametrlərinə görə dünyanın ən sabit, ən təhlükəsiz ölkələrindən biridir. Bunun çox vacib ifadələrindən biri ölkəmizə günügündən artmaqda olan turist sayında görünə bilər. Bir neçə il bundan əvvəl Azərbaycanda turistləri yəqinki görmək o qədər asan deyildi. İndi isə Bakı şəhərinin, Azərbaycanın turizm üçün maraqlı olan bir çox regionlarının həyatının və mənzərəsinin ən vacib görüntülərindən biri də xarici vətəndaşlardır, turistlərdir. Bu eyni zamanda Azərbaycandakı sabitliklə, təhlükəsizliklə, əmin-amanlıqla bilavasitə əlaqədardır".

YAP-ın Sədr müavini, Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını tədbir iştirakçılarının diqqətinə çatdıraraq qeyd edib ki, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirilib və bunun nəticəsində ölkəmizdə əməkhaqları, təqaüdlər və sosial müavinətlər əhəmiyyətli dərəcədə artıb: "Yeni Azərbaycan Partiyası bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən quruculuq, abadlıq işlərində yaxından iştirak etmək, bu layihələrin həyata keçirilməsinə öz töhfələrini vermək niyyətindədir. Əgər belə ifadə etmək mümkündürsə Yeni Azərbaycan Partiyası əzəmətli bir siyasi ordudur ki, onun qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün hər cür fədakarlıq və qəhrəmanlıq göstərməyə hazırdır. Bu vaxta qədər həmin qəhrəmanlığı və fədakarlığı göstərib təbii ki, bundan sonra da həmin istiqamətdə və ondan daha möhtəşəm, əzəmətli qəhrəmanlığı və fədakarlığı göstərməyə hazırdır. İnanıram ki, bizim bundan sonrakı həyatımızda daha böyük uğurlar əldə ediləcəkdir. Təbii ki, bu uğurların əldə olunmasında YAP-ın hər bir üzvünün, bütövlükdə YAP-ın böyük əməyi və fədakarlığı olacaqdır. Bizim istəyimiz ondan ibarətdir ki, YAP-ın ilk təşkilatları da öz məsuliyyətini daha dərindən dərk edərək fəaliyyətlərini daha da gücləndirsinlər".

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib. Bununla belə Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir.

YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdır. Ona görə də, partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidir. O cümlədən, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır. Sonda YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

## Əli Əhmədov İsmayıllı şəhərində Qarabağ müharibəsi veteranları ilə görüşüb





Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində Qarabağ müharibəsi veteranları ilə görüşüb. Əli Əhmədov Qarabağ müharibəsi veteranlarının qayğıları ilə maraqlanıb və xatirə şəkili çəkdirib.

## Nadir Vəkiloğlu: "Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təsis olunan medalın mənə təqdim olunması çox qürurvericidir"

Mən Azərbaycanın ən gənc millət vəkili və Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri olmuş Mustafa bəy Vəkilovun oğluyam. Atamın Azərbaycan üçün xidmətləri barədə mətbuatda və nəşrlərdə bir çox məlumatlar var. Hələ də onun haqqında filmləri izləmək olar. Bu sözləri AZƏRTAC-a müsahibəsində İstanbulda ilk Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının varislərinə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalının təqdim edilməsi mərasimində Nadir Vəkiloğlu bildirib.



O, deyib: "Azərbaycanın çətin zamanlarında o qərarları vermək və baş qaldırmış üsyanları basdırmaqda Mustafa bəy Vəkilovun çox böyük əməyi var. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dağıldıqdan sonra atam Türkiyəyə gəlib və fəaliyyətini burada davam etdirib. O, son nəfəsinə kimi Türkiyədə yaşayan azərbaycanlılara arxa olub. Atam vəfat edəndə mən çox balaca idim. Əfsuslar olsun ki, bu hadisələr barədə ondan məlumat ala bilmədim. Hazırda Mustafa bəy Vəkilovun adına olan medal mənə təqdim edilib. Bu çox qürurverici haldır".

# “Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu üçün hər cür şərait yaradılıb”

*Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov İsmayıllı şəhərində gənclərlə görüşüb*

**Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib.**



Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, MM-in komitə sədri Eldar İbrahimov, MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov, İsmayıllı rayon İcra hakimiyyətinin başçısı Mirdamət Sadıqov və ictimaiyyət nümayəndələri iştirak ediblər.







Əvvəlcə İsmayıllı şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova tədbirdə giriş sözü ilə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, Dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində İsmayıllı rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. İsmayıllı gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. Əli Əhmədov deyib ki, gənclərin təhsil alması, işləməsi, istirahət etməsi, gənclərimizin qayğısız böyüməsi üçün, layiqli vətəndaş kimi yetişməsi üçün lazım olan bütün imkan və şərait yaradılıb. Yeni Azərbaycan Partiyası hökumətimizin müəyyənləşdirdiyi bu siyasətin həyata keçirilməsi üçün öz imkanları çərçivəsində bir çox layihələr həyata keçirir. Bütövlükdə hesab edirəm ki, YAP gəncləri partiyamızın gücünün, fəallığının formalaşmasında ictimai-siyasi həyatda partiyamızın yaxından iştirak etməsində əhəmiyyətli bir qüvvəyə, gücə çevriliblər.

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması bizi sevindirir: “Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Partiyamızın 700 mindən çox üzvü var və onların 40 faizə qədəri gənclərdən ibarətdir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər”.

Bu gün Azərbaycanın öz tarixinin ən gözəl dövrünü yaşadığını deyən Əli Əhmədov bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq hissi yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu, eləcə də idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar. Gənclərlə görüşdə MM-in deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, İsmayıllı rayon İcra hakimiyyətinin başçısı Mirdamət Sadıqov, eləcə də gənclərin nümayəndələri çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin uğurlarından bəhs ediblər.




## Los-Anceles səmalarında və küçələrində Qarabağ həqiqətləri

***Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 22-də Los-Ancelesə səfər edərək erməni icmasının keçirdiyi mitinqdə çıxış edib. Xatırladaq ki, yarım milyonadək erməninin yaşadığı Los- Anceles vilayəti ABŞ-da ermənilərin ən çox yaşadığı yerdir.***







Bunu nəzərə alaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los- Anceles səmalarına ingilis dilində böyük hərflərlə “Karabakh is Azerbaijan! End the Occupation” (Qarabağ Azərbaycanındır! İşğala Son Qoy!) şüarını daşıyan təyyarələr qaldırılıb. Bütün günü Los- Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin ən müxtəlif guşələrini dolaşaraq, böyük sayda şəhər sakinini Ermənistanın işğalçılıq siyasəti barədə məlumatlandırıb. Plakatlarda Azərbaycanın 20 faiz ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumat verilib.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev səfər ərəfəsində Los-Anceles şəhər və vilayət rəhbərliyinə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən bir ölkənin baş nazirinin səfərinə etiraz edən məktublar göndərib. Həmçinin N.Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub. Belə ki, ABŞ-ın ən böyük yəhudi qəzeti olan, Los- Ancelesdə nəşr edilən “Jewish Journal” qəzetində, həmçinin “NewzBlaze” qəzetində müvafiq məqalələr dərc olunub. Məqalələrdə Ermənistanın öz qonşusuna qarşı işğalçılıq siyasəti həyata keçirən kriminal bir dövlət olduğu, beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi, Ermənistanda nasist generalların milli qəhrəman elan olunduğu, antisemitizmin geniş yayıldığı qeyd olunaraq, belə bir ölkənin baş nazirinin Los-Ancelesdə qəbul olunmasının qeyri-məqbul olduğu bildirilib. Məqalələr sosial şəbəkələrdə geniş yayılaraq, sadə amerikalılar tərəfindən N.Paşinyanın səfərinin kəskin tənqidinə səbəb olub.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
24 sentyabr 2019-cu il

# "Şimal-Cənub" Nəqliyyat Dəhlizi regionunda, Azərbaycanın regionda və dünyadakı mövqelərini möhkəmləndirir

***Azərbaycanın tranzit ölkə statusunu daha da möhkəmləndirən növbəti qlobal layihənin - "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də öz strateji mühümlüyü ilə bütün dünyanın diqqəti mərkəzindədir. Məhz burada Azərbaycanın yeri və rolunun bir sıra vacib məqamlara söykənməsi danılmaz reallıqdır. Belə ki, Azərbaycan Avrasiya materikində strateji nəqliyyat-kommunikasiya potensialını gücləndirməklə yanaşı, qitələrarası iqtisadi əlaqələrin daha da genişləndirilməsində öz töhfələrini artırmaqda və genişləndirməkdədir.***




### Azərbaycan tranzit ölkə kimi geosiyasi çəkisini artırmaqda davam edir

"Asiya ilə Avropa arasında ən qısa yol, bu gün Azərbaycandan keçir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulamışdır. Belə ki, son illər ərzində, Azərbaycanın yol-nəqliyyat infrastrukturunun inkişafına yatırılmış böyük sərmayələr ölkəmizi iki mühüm qitə arasında strateji tranzit dəhlizlərinin yaradılmasına gətirib çıxarıb ki, bu da, ölkəmizi mühüm nəqliyyat qovşağına çevirib, əhəmiyyətini daha da artırıb. Xüsusilə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin istifadəyə verilməsi Azərbaycanın tranzit ölkə kimi geosiyasi çəkisini artırmaqda davam edir.

Onu da xatırladaq ki, ölkələr arasında "Şimal-Cənub" dəhlizi razılaşması bütün nəqliyyat növlərinə: dəmir yolu, dəniz, avtomobil, çay və hava nəqliyyatı ilə daşımaları təmin edən logistika infrastrukturuna və vasitələrinə aiddir. Bu mənada, daha öncələr verilmiş proqnozlar da özünü kifayət qədər doğrultmaqda, Azərbaycanın istər regionda, istərsə də dünyadakı mövqeyini bürün perspektivləri ilə artırmaqdadır.

### Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə münbit şərait yaranıb

Digər tərəfdən, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Qərbi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə də münbit şərait yaradır ki, artıq bu istiqamətdə bir sıra növbəti layihələr və planlar işlənib-hazırlanmaqdadır. Daha dəqiq desək, həmin dəhliz Avropa - Cənubi Asiya - Yaxın Şərq arasında dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalardan əldə etdiyi gəlirləri artırmağa imkan yaratmaqdadır.

Onu da xatırlatmaq vacibdir ki, Azərbaycanın "Şimal-Cənub" Nəqliyyat Dəhlizinə qoşulmasına, Ulu Öndər Heydər Əliyev razılıq vermişdi. Məhz Onun razılığından sonra bu istiqamətdə bir sıra mühüm işlər görülməyə başlanmışdı. Aparılan məhsuldar görüş və müzakirələrin nəticəsidir ki, artıq Azərbaycan dövləti bu möhtəşəm layihədə söz sahibinə çevrilib.

Politoloqların, iqtisadi ekspertlərin yekdil fikrinə görə, belə strateji təşəbbüsləri irəli sürməklə, Azərbaycan qlobal müstəvidə yerini və rolunu müəyyənləşdirməklə yanaşı, həm də potensialını nümayiş etdirir, eləcə də, mühüm regionda aparıcı aktorlardan biri olduğunu təsdiqləyir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi həm də çox mühüm geosiyasi reallıqdır və Cənubi Qafqaz regionunda və Xəzər bölgəsində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi üçün yeni imkanlar açır. Dəhliz, eyni zamanda, Ermənistanın beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı planlarının üzərindən xətt çəkir, işğalçı ölkənin regionun tranzit dalanında boğulmasına şərait yaradır. Rəsmi İrəvan uzun illər idi ki, İranla Rusiya arasında birləşdirici halqa olmaq istəyini hər fürsətdə gündəmə gətirirdi. Lakin iqtisadi problemlərin əhatəsində itib-batan, qonşular ilə münasibətləri olmayan Ermənistanın bütün cəhdləri uğursuzluqla nəticələndi. İndi işğalçı ölkə respublikamızın tranzit potensialının hər keçən gün artdığını müşahidə etməklə, çarəsiz şəkildə iqtisadi məğlubiyyətini gözə almaqdadır.

### Azərbaycandan keçən bu yol milyonlarla ton əlavə yükün ərazimizdən daşınması deməkdir

Hələ illər öncə, "Şimal-Cənub" Dəhlizinin Azərbaycana çox böyük iqtisadi mənfəət gətirəcəyini bildirən Prezident İlham Əliyev vurğulamışdı ki, Azərbaycandan keçən bu yol milyonlarla ton əlavə yükün ərazimizdən daşınması deməkdir. Bunun həm siyasi, həm iqtisadi gəlirlər gətirəcəyi isə şübhə doğurmur. Artıq Azərbaycanın bu dəhliz vasitəsi ilə təməlli iqtisadi gücə çevrilməsi də danılmaz faktdır. Misal üçün, hesablamalara görə, 2020-ci ilə Azərbaycanın tranzit potensialı 600-700 milyon dollara və ya 300 min konteynerə çatacaq. Bu göstəriciyə də, məhz sadalanan tranzit dəhlizlərinin fəaliyyətə başlaması sayəsində mümkün olacaq.

Beləliklə, bu gün Azərbaycanın strateji əhəmiyyətli dəhlizlərin işlək vəziyyətə gətirilməsində oynadığı mühüm rol yüksək qiymətləndirilir.

### Ölkəmizin geosiyasi və geoiqtisadi nüfuzu daha da artmaqdadır

Şimal-Qərbi Avropa, Xəzər hövzəsi və Körfəz, Mərkəzi və Cənub Şərqi Asiya dövlətlərini nəqliyyat vasitəsilə birləşdirən gerçəklik kimi dəyərləndirilən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin istismara verilməsindən sonra ölkəmizin geosiyasi və geoiqtisadi nüfuzu daha da artmaqdadır. Ona görə ki, dünyanın iki böyük qitəsini Azərbaycandan keçməklə, birləşdirən bu dəhliz çoxfunksiyalıdır və onun strukturuna avtomobil, habelə, dəniz yollarının da daxil olması layihəyə əlavə üstünlüklər verir.

Bütün bunların da, Azərbaycandan keçməklə, reallaşması və yüklərin tranzit keçidini təmin etməsi ölkəmizin aparıcı rolunu gücləndirir, dövlət büdcəsinə tranzit gəlirlərinin daxil olması ilə yanaşı, iqtisadiyyatın qeyri-neft sektoru daha da inkişaf edir, bunun da əhalinin məşğulluğunu təmin etməklə həyat şəraitinin, sosial-məişət həyatının yüksəlməsi üçün növbəti imkanlar açılır.

### Azərbaycan regionda və dünya miqyasında logistika və tranzit mərkəzinə çevrilib

O da, sirr deyil ki, hazırda dünya bazarında neftin qiymətinin tez-tez dəyişməsi iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun inkişaf etdirilməsini tələb edir. Prezident İlham Əliyevin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət ayırmasının əsasında dayanan amil, ondan ibarətdir ki, Azərbaycan regionda və dünya miqyasında logistika və tranzit mərkəzinə çevrilsin. Artıq bu məsələ də öz həllini tapıb və daha da inkişaf etdirilməkdədir. Həmçinin, bu faktor dövlət büdcəsinə əlavə vəsait gəlməsi ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdırır, ölkənin ixrac potensialını artırır. Beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyətli rol oynaması onun qlobal iqtisadiyyata daha səmərəli inteqrasiyasına, qeyri-neft sektorunun inkişafına, modernləşməyə, iqtisadi islahatların sürətlənməsinə də kifayət qədər stimul verir.

*Rövşən RƏSULOV*

## Müdafiə Nazirliyi: Ermənistan KİV-lərində guya Azərbaycan tərəfinin cəbhə xəttində təxribat törətməsi barədə yayılan məlumatlar yalandır



Sentyabrın 22-də cəbhəboyu zonada yerləşən hərbi hissədə əsgər Abdulrəhmanov Ramin Şövkət oğlu yolu azaraq düşmənlə üzbəüz mövqelər arasındakı ərazidə ermənilər tərəfindən vurulub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, əsgərin naşinin ərazidən təhlükəsiz təxliyəsini təmin etmək məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinə müraciət olunub. Ermənistan KİV-lərində guya Azərbaycan tərəfinin cəbhə xəttində təxribat törətməsi barədə yayılan məlumatlar yalandır.

## Sevinc Fətəliyeva: Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli dövlətə çevrilib



"Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Müasir müstəqil Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, bütün sahələrdə qazanılan parlaq nailiyyətlər ölkəmizin qarşısında yeni perspektivlər açır". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət qarşıya qoyulan strateji əhəmiyyətli hədəflərə çatmağa imkan verir, ölkənin sosial-iqtisadi inkişafının davamlılığını təmin edir. Həmçinin, aşağı səviyyədə saxlanan dövlət borcu ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir, valyuta ehtiyatlarımız isə xarici borcumuzdan beş dəfə artıqdır. Onun sözlərinə görə, xüsusilə də neft gəlirlərinin strateji sahələrə yönəldilməsi nəticəsində milli iqtisadiyyatın dinamik inkişafı təmin edilib, qeyri-neft sektorunun tərəqqisinə nail olunub. Bir sözlə, 20 sentyabr 1994-cü il tarixdə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan yeni neft strategiyası Azərbaycanın sürətli inkişafına şərait yaradıb. Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunması nəticəsində ölkədə geniş-abadlıq quruculuq işləri aparılıb, paytaxt Bakının və regionlarımızın siması müasirləşib, əhəmiyyətli dərəcədə dəyişilib, yüksək infrastruktur təminatı yaradılıb, ölkənin maliyyə imkanları və valyuta ehtiyatları artıb və Azərbaycan qüdrətli, özünü təmin edən dövlətə çevrilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Qazlaşdırma 96 faizdir, əhalinin 75 faizi isə daimi içməli su ilə təmin edilir və bu proses davam etdirilir. Sosial infrastruktur tamamilə yenidən qurulub, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir olunub.

"Ötən müddət ərzində Azərbaycanda güclü sosial siyasət həyata keçirilib, vətəndaşlar dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Ölkəmizdə inqilabi xarakterli sosial islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yaxşılaşması üçün həyata keçirdiyi işlərin miqyası getdikcə genişlənir. Yüz minlərlə köçkünə yeni evlər, şəhid ailələrinə, müharibə veteranlarına isə güzəştlər, müavinətlər, mənzillər, minik avtomobilləri verilib. Bütövlükdə, dövlət başçısının rəhbərliyi altında aparılan islahatlar ölkəmizin "Doing Business 2019" hesabatında yeni rekorda imza artmasına imkan yaradıb. Azərbaycan 10 ən islahatçı ölkə siyahısında qərarlaşıb və MDB ölkələri arasında lider mövqe tutur. Dünyada etibarlı tərəfdaş kimi tanınan, praqmatik xarici siyasət həyata keçirən Azərbaycan, eyni zamanda, beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə edirb. Azərbaycanın liderliyi və təşəbbüsü ilə mühüm enerji, nəqliyyat-kommunikasiya layihələri həyata keçirilir, yeni əməkdaşlıq platformaları yaradılır. Beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi xarakterizə edilən subyektlər - milli dövlətlər respublikamızla əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdırlar. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət kursunun real nəticələridir"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Bu dövlət hamımızındır və onu qorumaq da hamının borcudur

*Milli Məclisin deputatı Elşən Musayevin yap.org.az-a müsahibəsi*

***- Elşən müəllim, hazırda gündəmin əsas müzakirə mövzularından biri xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələrin ölkəmizə qarşı apardıqları şər-böhtan kampaniyası ilə bağlıdır. Sizcə, bu çirkin kampaniyanın əsasında hansı amillər dayanır?***

- İlk amil, ilk səbəb odur ki, Azərbaycanın uğurları bir çox qüvvələri qane etmir və bu uğurları qəbul etmək istəməyən, onu həzm edə bilməyən həmin xəbis xislətli qüvvələr öz daimi fəaliyyətlərindədirlər. Bu proses həmişə olub və indi də estafet davam edir. Azərbaycan inkişaf etdikcə, uğurlarımız artdıqca məlum düşmənlərin, bizi sevməyən qüvvələrin yönləndirdiyi proseslər də artan dinamika üzrə inkişaf edəcək. Hazırda mühacir adı ilə aldığı qrantların miqdarını çoxaltmağa çalışan, ölkədəki radikal stimulvericilərinə daha böyük həcmdə pul-para, pay-pürüş göndərməyə səy göstərən anti-milli ünsnsür komandası formalaşıb. Təbii, haralardansa da himayə olunurlar və proqramlı fəaliyyət göstərirlər. Son dərəcə çirkin kampaniyadır, amma nə təəssüf ki, həmin kampaniya vicdanını, ləyaqətini, şərəfini itirən insanlar tərəfindən ardıcıl mərhələlər üzərindən davam edir. Kənardan görünə bilər ki, bu hakimiyyətə, iqtidara qarşıdır. Xeyr! Bu birmənalı şəkildə dövlətə, dövlətçiliyə, azərbaycançılığa, mentalitetə qarşıdır. Həmin kütlənin dərdi xalq və dövlət deyil. Bu gün şər və iftira fəaliyyətini davam etdirən ünsürlərin xalqa və dövlətə azacıq da olsa aidiyyəti yoxdur. Sadəcə şəxsiyyət vəsiqələrində və pasportlarında azərbaycanlı sözü yazılıb. Vəssalam. Vidadi kimi tərbiyəsiz milliyətçi, xalq fədaisi ola bilərmi? Bu psixoz, narkoman dövlətin bu gününü, sabahını düşünə bilərmi? Əsla və əsla! Nə avantürist, nə söyüş ritorikasına köklənən, nə əslindən, nəslindən, kökündən, şəcərəsindən xəbəri olmayan varsa əlinə bir "nootbuk" alıb, internetə qoşulub, kanal açıb ölkəyə, ölkənin ləyaqətli insanlarına qarşı kənardan hədyan yağdırır. Biri adını bloqqer qoyub, biri veriliş aparıcısı, biri mühacir, biri məzlum. Absurddur. Hər mənada. Ən böyük absurd isə bu yaramazların hələ də məsuliyyətə cəlb edilməmələri, rahat formada dolanmaları, gəzmələridir.

Azərbaycan dövlətində hansısa əcnəbi öz ölkəsinin istənilən vətəndaşına qarşı belə informasiya terroru, mənəvi terror edə bilərmi? Bu mümkündürmü? Əsla mümkün deyil. Dərhal tədbir görülər. Və nəinki Azərbaycanda, özünə, qanunlarına hörmət qoyan istənilən ölkədə. Demək ki, bizə demokratiyadan dərs keçmək həvəsinə düşən bəzi ölkələr ilk öncə öz qanunlarının aliliyini qorumalı, ilk öncə beynəlxalq hüququn ana prinsiplərini gözardına almamalı, Konvensiya tələblərinə hörmətlə yanaşmalı, ondan sonra uca səslə, bərkdən hansısa məhkəmə qərarlarının icra faizi haqqında müzakirələrə qoşulmalıdırlar, məruzəçi təyin etməlidirlər, demokratiya söhbətləri aparmalıdırlar. Görünən budur ki, Azərbaycan özü hazırda hamıya demokratiyadan dərs keçər. Ən azından bizə demokratiya haqqında uzun uzadı nağıllar danışanlara. Daha doğrusu belə bir eşqə düşənlərə.



***- Narahatlıq doğuran bir məqam da mühacir müxalifətin xaricdəki müəyyən dairələrin maraqlarına xidmət etməsidir. Bu fakt nə dərəcədə təhlükəlidir?***

- Müxalifət, daha dəqiqi radikal müxalifət öz ampluasındadır. Dəyişən bir şey yoxdur. Əgər Əli Kərimli adında siyasətçi Vidadi İsgəndərlinin hərəkətlərinə dolayı yolla da olsa haqq qazandırırsa, bu yolu dəstəkləyirsə, Qənimətin dili, Natiqin ifası ilə təhqirin, söyüşün, şərin, böhtanın ən yüksək həddini özünə prioritet seçirsə, bundan sonra heç nəyə təəccüblənmək lazım deyil. Xislətləri və mahiyyətləri budur. Təbii, qorxulu tendensiyadır. Belə riyakarların əlində imkan olsa ölkənin taleyini hərraca qoyub, onu keçi qiymətinə satarlar. Çünki daim sata-sata gəliblər. Düzdür, bəzən alıcıları olmayıb, amma həmişə satmağa nələrisə olub. Öz liderini satan adamın sata bilməyəcəyi heç nə yoxdur. Bu aksiomdur! Əli Kərimli və onun tayları həmin kateqoriyadandır.

***- Ölkəmizin daxilindəki "beşinci kolon"un nümayəndələri də mühacir müxalifəti ilə sinxron fəaliyyət göstərir. Bu fakt onların eyni mərkəzdən idarə olunduğunu göstərirmi?***

- Onlar eyni komandadır. Nəinki sinxrondurlar, hətta bir can, bir qan, bir gendəndirlər. Üstəlik, ümumi maraqları üçün bütün mental dəyərlərdən, əsl həqiqətlərdən, gerçəklikdən uzaq durublar. Durmağa hazırdırlar! Təsəvvür edin, o gün Qənimətin verlişində Elçibəy açıq şəkildə təhqir olundu. Biz Elçibəyin müdafiəsinə qalxdıq, amma Kərimli qalxmadı, Qənimət cınqırığını da çıxarmadı. Niyə? Bəs Elçibəy axı sizin atanız, müəlliminiz, rəhbəriniz idi? Deyim niyə. Çünki indiki mərhələdə Əli Kərimliyə və onun silahdaşlarına hansısa başqa yaramaz ilə konflikt sərf eləmir. Bir daha qeyd edirəm: ümumi maraqlar var. Ona görə. Elə bir hala, vəziyyətə gəliblər ki, Leyla Yunus, Xədicə İsmayıl, Sevinc Osmanqızı bunların ideoloqlarına çevriliblər. "5-ci kolon"un nə ünsürü varsa onların beynindən, düşüncələrindən qidalanırlar. Hələ baxarsız, bir azdan internetdəki verilişlərinə Əlikramı-fılan da çıxaracaqlar. Bəli, bu millətə, dövlətə düşmən olan kim varsa bunların dostudur. Yəni, məlum qüvvənin dost qəbul etmə yaradıcılığında ana xətt budur. Baxmayaraq ki, hər gün ifşa olunurlar, həm də faktlarla ifşa olunurlar - yenə dayanmırlar. Çünki, yaramazlığın dayanacağı, durma yeri, əyləc basma nöqtəsi yoxdur, olmur. Çünki yaramazlıq abstrakt anlayışdır. Çünki yaramazın həyat kredosu, fəlsəfəsi tükənməyən və qəbrə qədər davam edən pisliklərin məcmusundan ibarətdir.

***- Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyinə qarşı ölkəmizdəki siyasi partiyaların və vətəndaş cəmiyyətinin həmrəyliyi nə qədər vacibdir?***

- Bu fəaliyyət labüddür və var. Amma söhbət aparılan insanlar elə sadəcə partiya sədridir deyə masaya dəvət olunmamalıdır. O gün dəyirmi masada müxalifət funksionerinin dilindən gördünüzmü hansı fikir səsləndi? Demə,"üsyan hüququ" varmış, amma bizim xəbərimiz yoxmuş. Belə adamlarla nə müzakirə, hansı müzakirə aparmaq olar? Təbii, radikal deyil, konstruktiv müxalifət qanadında bizimlə müəyyən məsələlərdə fərqli düşünən, fəqət millətçil, dövlətcil olan insanlar var. Qüdrət Həsənquliyev də müxalifətdir, düşüncəsini açıq şəkildə dilə gətirən adamdır, bir çox məsələlərdə iqtidarla eyni fəlsəfəni bölüşmür. Amma ləyaqəti, şərəfi, mənliyi həmişə üstündədir, əsl dövlət cəfakeşidir, əsl kişi obrazına sahibdir. Masada belə ləyaqətli müxalifətlə üzbəüz oturmaq lazımdır, polemika, müzakirə onlarla aparılmalıdır. Ayrıca, çox doğru buyurdunuz ki, vətəndaş cəmiyyətinin də bu istiqamətdə böyük hərəkətliliyinə ehtiyac var. Bu fikirlə iki əlli razıyam. Çünki hazırda siyasi kontingentlə bərabər ictimai yük daşıyan insanların da sayı olduqca çoxdur. Mən sizə tam səmimi deyim ki, sosial şəbəkələrdə, cəmiyyətdə öz sözünü, əsas da doğru sözü söyləyən insanların böyük əksəriyyəti məhz ictimai fəallardır. Onların içində vətənpərvər, millətini sevən insanların sayı yetərincədir. Yəni, sözümün canı budur ki, fərq etməz kim hansı cəbhədədir, dövlət marağını şəxsi maraqlardan üstün tutan hər kəsi mövzu ətrafında birləşdirmək və xaricdə ölkəmizə qarşı planlanan məkrli ssenarilərə qarşı səfərbər etmək lazımdır. Bu dövlət hamımızındır. Onu qorumaq da hamının borcudur.

# DSX: Düşmən "Qazax" sərhəd diviziyasının döyüş mövqelərini və təminat yolları salan ekskavatoru atəşə tutub




Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir. DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 20-də saat 13:20 radələrində sərhəd döyüş mövqelərimiz və təminat yollarının salınması ilə məşğul olan ekskavator düşmən tərəfindən atəşə tutulub. Düşmən bölmələrinin atəş nöqtələri cavab atəşi ilə susdurulub.

# Mübariz Əhmədoğlu: "Ermənistan Təhlükəsizlik Xidmətinin rəhbəri Vanetsyanın istefası çoxmənalıdır"




Son günlər Ermənistan Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri A.Vanetsyanın istefası ilə bağlı bir çox məsələlər üzə çıxmaqdadır. Sözügedən məsələ ilə bağlı Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu bildirib ki, Ermənistan Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri A.Vanetsyanın ətrafında baş verənlər Ermənistanın müasir hakimiyyətinin daxilində baş verənlərin ən vacib göstəricilərindən biridir: "Vanetsyan mövzusu, güman ki, uzun müddət müzakirə olunmayacaq, daha ciddi proseslər qarşıdadır. A.Vanetsyanın istefaya göndərilməsi isə, bir sıra prizmalardan təhlil obyektidir:

I. A.Vanetsyan ailəsi ilə birlikdə Tbilisidə Gürcüstanın keçmiş təhlükəsizlik xidmətinin rəhbəri indiki daxili işlər naziri V.Qomelauri ilə birlikdə şəkil çəkdirməsi, hər halda, mənası simvolikdir və Ermənistandan kənarda özünü təhlükəsizlikdə olduğunu nümayiş etdirdi. Başqa sözlə, Ermənistanda onun üçün təhlükə var imiş. O, Ermənistanda əhaliyə və siyasətçilərə təhlükə yaradan quruma rəhbərlik edib, N.Paşinyanın kombinatorikalarının hazırlanmasında və reallaşmasında çox yaxından iştirak edib. Beləliklə, Vanetsyanın davranışı N.Paşinyanın ruhi xəstə olması ilə bağlı yayılan məlumatların bir daha təsdiqidir.

II. A.Vanetsyan N.Paşinyanın hakimiyyətinin sona çatdığını və eləcə də, özünün vəzifədən gedəcəyini düşünərək, çox böyük ehtimalla iri korrupsiya əməliyyatlarından şəxsi gəlir əldə edib. MDB dövlətlərindən yalnız Ermənistan Milli Təhlükəsizlik Xidmətində korrupsiya ilə mübarizə ön planda idi və mətbuatın yazdığına görə, keçmiş maliyyə naziri Qrant Xaçatryandan müəyyən qədər pul alaraq onun azad olunacağını da vəd verib. Görünür, Vanetsyan son dövrlərdə pul oyunlarına girişib və bu, onun pul oyunları N.Paşinyanda şübhə yaradıb. Çünki N.Paşinyan və onun ailəsi hakimiyyətinin sonunun çatdığını düşünür və onların da pula ehtiyacları yaranır. Beləliklə, pul bölgüsü üstündə Paşinyanla narazılıq Vanetsyanın istefasına səbəb oldu.

III. Rusiya Təhlükəsizlik Şurasının sədri N.Patruşevin Yerevana səfərindən 2 gün qabaq A.Vanetsyanın məzuniyyətə çıxması ilə bağlı məlumat yayıldı. Məlumatda Vanetsyanın 10 gün sonra məzuniyyətə çıxacağı göstərilirdi. N.Patruşevin Yerevanda görüşdüyü şəxslərin sırasında A.Vanetsyan yox idi. A.Vanetsyan Ermənistanda təhlükəsizlik siyasətində birinci şəxsdir. Təhlükəsizlik Şurasının katibi A.Qriqoryan inamlı sorosçudur. N.Patruşevin A.Vanetsyana qarşı de-marşı təsadüfi ola bilməzdi. Ehtimal ki, Vanetsyan Rusiyanın qarşısında "günahkardır". Günahını da güman etmək olar: Gürcüstanda ABŞ Milli Demokratiya İnstitutunun keçirdiyi rəy sorğusunda bəlli oldu ki, Gürcüstandakı ermənilər bu ölkənin əsas inkişaf istiqamətinin-NATO-ya inteqrasiyanın əleyhinədirlər. Cavaxetiya ermənilərinin Gürcüstanın NATO əleyhinə olması siyasətinin ucu Ermənistana gedib çıxdı. O vaxt Gürcüstanın Təhlükəsizlik Xidmətinin rəhbəri Vaxtanq Qomelauri dərhal Yerevana gəldi. Görünür, o zaman A.Vanetsyan Cavaxetiya ermənilərinin içərisində Rusiyanın əsas adamlarının adlarını V.Qomelauriyə verib. Yeri gəlmişkən, məhz indi ona görə də, çox böyük arxayınlıqla, o, Gürcüstanda sığınacaq tapıb. Beləliklə, N.Patruşevin Vanetsyana de-marşı sonradan özünün inkişafını tapıb və vəzifədən uzaqlaşdırıldı.

M.Əhmədoğlu onu da bildirdib ki, N.Paşinyanın son dövrlərdə vəzifədən uzaqlaşdırdığı adamlar içərisində "qarşılıqlı razılaşma" yalnız N.Patruşevin səfərindən sonra istefaya göndərilənlərlə əlaqəli işlənilir. "Qarşılıqlı razılaşma" termini Vanetsyan üçün də tətbiq olundu: "Ermənistanın siyasi elitasının çürüdüyü və gələcəyə ümidsiz olduğu aşkarlandı. Ermənistan dövlətinin yeganə xilas yolu qonşulara qarşı normal siyasət aparmaqdan, işğalçılıqdan əl çəkməkdən keçir".

**R.HÜSEYNOVA**

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)

***YAP icra aparatı katibliyindən Həsən Əliyev zəng vurub deyəndə ki, bu ilin sentyabrın 10-da Çinə gedəcək nümayəndə heyətinin siyahısında mənim də adım var - tərəddüdsüz razılaşdım. Hətta Həsənin, - bəlkə başqa planlarınız var, iş qrafikinizə uyğun deyilsə imtina edə bilərsiniz - sözlərini zarafatla - Allah sənin köməyin olsun, bu saat dünya saatını Çinin vaxtı ilə düzəldir, mən niyə bu maraqlı və qüdrətli ölkəyə getməkdən imtina etməliyəm, dedim.***

Doğrudan da Çin həmişə maraqlı, ecazkar və bir qədər də sirli bir ölkə kimi mənim diqqətimi özünə cəlb edib. Digər tərəfdən səfərin ÇXR-nın yaranmasının 70-illiyinə və ÇKP ilə YAP əlaqələlərinin qurulmasının 20 illiyinə həsr edilmiş rəsmi və dostluq görüşü xarakteri daşıdığından əhəmiyyətli və yüksək səviyyəli olacağı bəri başdan aydın idi. Çin adını ilk dəfə mən 9-10 yaşlarında olanda Urudda eşitmişdim və bu ad mənim uşaq yaddaşımda çox keyfiyyətli, rahat və gözəl görünüşlü adına "keta" dediyimiz yüngül idman ayaqqabılarının istehsal edildiyi ölkə kimi qalmışdı.

Günlərin birində İrəvandan atam mənə



***Musa Urud, Millət vəkili, YAP Siyasi Şurasının üzvü.***

bir cüt "keta" alıb gətirdi və bu keta futbol oyununda mənə yüksək üstünlük və hörmət qazandırdı. Doğrudan da, qaloşla, rezin çəkmə ilə, sandaletlə, hətta ayaqyalın kəndimizin daşlı küçələrində top qovalamaqdan doymayan biz kənd uşaqları üçün bu yüngül, rahat və möhkəm keta ilə futbol oynamaq ayrı zövq və imtiyaz idi. Hətta yaxın dostlarım mən futbola getməyən günlərdə ketamı növbə ilə geyinib, futbol oynamaq üçün evimizə minnətə də gəlirdilər. Onda biz hələ "Kitay" sözünü eşitməmişdik və ketanın üstündə rusca "Sdelano v Kitae" sözünü elə keta kimi başa düşürdük.

2016-cı ildə biz bir qrup YAP-çı millət vəkili Çin Xalq Respublikasında səfərdə olarkən mən bu "keta-kitay" söhbətini çinli həmkarlarıma danışıb xeyli gülmüşdük.

Birinci səfərdən 3 ildən çox müddət keçməsinə baxmayaraq bu səfərin maraqlı təəssüratları və şirin xatirələri hələ də yaddaşımızda canlanırdı. Səfər yoldaşlarımız YAP idarə heyətinin üzvü, Milli Məclisin Regional Siyasət Komitəsinin sədri Arif Rəhimzadə, millət vəkilləri - Hikmət Babaoğlu (YAP Siyasi Şurasının üzvü, Yeni Azərbaycan qəzetinin redaktoru), Naqif Həmzəyev (YAP Gəncə şəhər təşkilatının sədri), Şahin İsmayılov (Azərbaycan Tələbə Gənclər İttifaqları Təşkilatının sədri), "Səs" qəzetinin redaktoru Bəhruz Quliyev, YAP-ın gənc fəalları Əli və Elmanla hər görüşəndə Çin səfərini xatırlayır, bu işgüzar və maraqlı səfərin təəssüratlarını bir daha yaddaşımızda canlandırırdıq. Həmin səfər zamanı təyyarədə dostum Bəhruz Quliyevə zarafatla yazdığım şerin müxtəlif bəndlərini bugünə qədər də səfər yoldaşlarımın yaddaşında qalmaqdadır.

Daha sonra Çin səddində Hikmət Babaoğlu mənim şerimə belə bir nəzirə yazmışdı. Hələ 2016-cı ildə Çində olarkən bu şeirləri dərc etməyi düşünsək də, görünür qismət bu günə imiş.

Çinə gedəcək nümayəndə heyətinin tərkibi 20 nəfərdən ibarət nəzərdə tutulmuşdu. Çünki ÇKP və YAP əlaqələrinin 20 illiyi ilə əlaqədar Çin tərəfi heyətində simvolik olaraq 20 nəfər olmasını istəmişdi. Sonra isə biz Pekində olarkən Çinli tərəfdaşlarımız 5 il ərzində hər il 20 nəfər - ümumilikdə 100 nəfər YAP nümayəndəsini qəbul edəcəkləriarzusunda olduqlarını bildirdilər. Ümumiyyətlə, Cənubi Qafqazın ən güclü və üzvlərinin sayına görə ən böyük partiyası olan YAP-ın beynəlxalq aləmdə nüfuzu ilbəil artır. Partiyamız ikitərəfli əlaqələrdən savayı Şərq ölkələrinin 18 aparıcı partiyasını birləşdirən Asiya Siyasi Partiyalarının Beynəlxaq Konfransı (İCAPP) ilə, Avropa Xalqları Partiyası (EPP), Latın Amerikası Siyasi Partiyalarının Təşkilatı (COPPAL) ilə əməkdaşlıq edir.

Elə Çin səfəri öncəsi biz partiya sədrinin müavini, YAP icra katibi, Baş nazirin müavini Əli Əhmədovun təşkilatçılığı və rəhbərliyi ilə İCAPP növbəti konfransının iştirakçılarından olmuşduq və bu ölkələrdən gələn qonaqlar Bakının gözəlliyi, ölkəmizin sürətli inkişafı, əldə etdiyimiz uğurlar haqqında necə riqqətlə danışmalarından qürur hissi keçirtmişdik.

Sentyabrın 4-də saat 12-də YAP Mərkəzi Aparatının binasında 2-ci mərtəbədəki konfrans salonunda Çinə gedən nümayəndə heyətinin görüşü oldu. Görüşdə səfərin məqsədi, çıxışlar, hədiyyə-suvenirlər və s. məsələlər müzakirə olundu. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası münasibətləri tarixində Çinə səfər edən ən geniş tərkibli nümayəndə heyətinə YAP Siyasi Şurasının üzvü, siyasi elmlər doktoru, professor, Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin sədri Hadi Rəcəbli başçılıq edəcəkdi. Nümayəndə heyətinin üzvləri aşağıdakılardan ibarət idi:

- Musa Quliyev - YAP Siyasi şurasının üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini.
- Firdovsi Əliyev - YAP Siyasi şurasının üzvü, Ekologiya və təbii sərvətlər nazirinin müavini.
- Sahibə Qafarova - Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini.
- Cavid Osmanov - Milli Məclisin Regional məsələlər Komitəsinin üzvü, YAP Ağdaş rayon təşkilatının sədri.
- Naqif Həmzəyev - Milli Məclisin Gənclər və idman Komitəsinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri.
- Sədaqət Vəliyeva - Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, YAP Nizami rayon təşkilatının sədri
- Tahir Mirkişili - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü.
- Bəhruz Quliyev - "Səs" Media Qrupun rəhbəri;
- Namiq Əhmədov - YAP Xəzər rayon təşkilatının sədri
- Hikmət Şikarov - YAP Pirallahı rayon təşkilatının sədri
- Ramiz Göyüşov - YAP Binəqədi rayon təşkilatının sədri
- Nazim Ağayev - YAP Xaçmaz rayon təşkilatının sədri
- Zəkiyyə Musayeva - YAP Suraxanı rayon Qadınlar Şurasının sədri
- Araz Xudadanov - YAP İcra Katibliyində baş məsləhətçi
- Hülya Məmmədli - YAP İcra Katibliyində baş məsləhətçi
- Elmar Məmmədov - YAP Gənclər Birliyinin kordinatoru
- Orxan Bayramov - YAP Xətai rayon təşkilatının Gənclər Birliyinin sədri
- Salman Salmanov - YAP Nəsimi rayon təşkilatının Gənclər Birliyinin sədri
- Məcidzadə Fərəh - YAP Suraxanı rayon təşkilatının Gənclər Birliyinin sədri

Hökumətin başqa bir təcili tapşırıq verməsi səbəbindən Firdovsi Əliyev son anda səfərdən imtina etməli oldu və beləliklə, YAP-ÇKP dostluğunun 20 illiyinə həsr olunmuş görüşə 19 nəfər heyətlə yola düşdük.

Bir çox xarici səfərlərdə olduğu kimi qrupun fəaliyyətini əlaqələndirmək və vahid mərkəzdən idarəni təmin etmək məqsədilə kod adı "Çin heyəti" olan whatsapp qrupu yaratdıq. Qrupun idarə edilməsi və əlaqələndirilməsi işi YAP-çı fəal gəncimiz Hülya xanım Məmmədliyə həvalə olundu. Onu da deyim ki, Hülya qızımız ona tapşırılan bu vəzifənin öhdəsindən sona qədər bacarıqla gəldi.




Sentyabrın 10-u saat 1800-da Heydər Əliyev aeroportunun VİP salonunda toplaşaraq səfərin son detallarını bir daha müzakirə etdik, görüş proqramımız, çıxışlarımız, mədəni tədbirlər, hədiyyə və süvenirlər məsələsini bir daha dəqiqləşdirdik.

Proqrama uyğun olaraq ayın 12-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq şöbəsində "Xalqların rifahı naminə" şüarı altında dövlət idarəçiliyində təcrübə mübadiləsinə həsr olunmuş konfransda Hadı Rəcəbli 15 dəqiqəlik məruzə, Sahibə Qafarova, Tahir Mirkişili və mən 8 dəqiqəlik çıxış etməli idik. Məruzə və çıxışların mətnləri öncədən Çindəki səfirliyimizə tərcümə olunmaq üçün göndərilmişdi.

10 sentyabr saat 19:40-da AZAL konserninə məxsus müasir, təzə, hər cür konfortu və əla xidməti olan Boing 767-300 təyyarəsi üzü gündoğan ölkəyə havalandı. Bakıdan Pekinə hava məsafəsi 7 saat 40 dəqiqə, Pekinlə Bakı arasında saat fərqi ilə + 4 saatdır. Yəni biz Bakı vaxtı ilə 19:40-da yola düşdük və Pekin vaxtı ilə saat 06:20 dəqiqədə Çin paytaxtının CAPİTAL hava limanında yerə endik. Düz təyyarənin trapında bizi ötən səfərdən tanıdığımız ÇKP MK-nın MDB ölkələri ilə iş sektorunun əməkdaşları Can Cenkun (biz ona sadə və rahat olması üçün eləcə Can deyə müraciət edirdik), Li Zhujun (ona Maşa deyirdik) bir də Xuj - (ona da Saşa deyirdik) köhnə dostlar kimi qucaqlaşaraq qarşıladılar.

Hava limanının VİP salonunda səfirimiz Əkrəm Zeynallı başda olmaqla Azərbaycanın Çindəki səfirliyinin əməkdaşları geniş tərkibdə bizi gözləyirdilər. Pasport nəzarətindən keçəndən sonra VİP salonda baqajlarımız gələnə qədər səfirlə fikir mübadiləsi apardıq.

Onu da qeyd edim ki, Əkrəm Zeynallı cəmi 2 ildən bir az artıq müddətdir böyük elçi kimi işləməyinə baxmayaraq Çindəki səfirliyimizin statusunun yüksəlməsi, ölkələrimizin arasındakı münasibətlərin daha yüksək səviyyəyə qalxması üçün xeyli səylər göstərmiş və nəticələr əldə etmişdir. Məhz onun təşəbbüsü və müraciətləri əsasında səfirliyimizin diplomatlarının sayı 3 nəfərdən 25 nəfərə qaldırılmış və Çin Xalq Respublikasının Baş katibi Si Tsinpin hörmətli prezidentimiz cənab İlham Əliyevə xüsusi hörmətinin nəticəsi olaraq Azərbaycan səfirliyinin binasının tikilməsi üçün Pekin şəhərinin mərkəzində səfirliklərin yanında 30 sot torpaq sahəsi ayırmışdı. Bu ərazidə torpağın bir sotunun qiymətinin 2 milyon dollar olmasını nəzərə alsaq Çin rəhbərinin bizə hədiyyəsinin qiy-

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)

mətini dəyərləndirmək çox da çətin deyil. Amma bu münasibətlərin mənəvi dəyəri daha qiymətlidir və pul ekvivalenti ilə ölçülə bilməz. Elə buradaca bir xoşniyyətli gileyimi də bildirmək istəyirəm.

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyi 3 sentyabr 1993-cü il tarixindən fəaliyyət göstərir. Bu tarixdən indiyə qədər səfirliyimizin özəl binası - yeni mülkiyyəti Azərbaycan dövlətinə məxsus torpağı və daşınmaz əmlakı yoxdur. Səfirlik uzun illərdir ki, icarə əsasında çox da böyük olmayan kirayə binada məskunlaşıb və uzun illər - ta Əkrəm Zeynallının məlum təşəbbüsünə qədər 3 diplomatdan ibarət kiçik bir heyət ilə çalışmışdır. Özü də səfirliyin yerləşdiyi bina ən kasıb və kasıb ölkələrin səfirliklərinin qonşuluğunda yerləşir.




Diplomatik münasibətlərdə hər şey - diplomatın geyimindən, davranışından tutmuş səfirlik binasının böyüklüyü, yerləşdiyi ərazi, maddi-texniki imkanları, diplomatların sayı, statusu böyük əhəmiyyətə malikdir.

Təsəvvür edin Çin kimi nəhəng resurslara malik, dünyaya meydan oxuyan bir dövlətdə səfirlikdə çalışan 3 diplomatla nə iş görmək olar? Xarici işlər naziri elə üzü Avropaya baxır, 25 ildə Çini, oradakı problemlərimizi görən olmayıbmı? Axı Çin həm ərazi, həm əhalicə, həm iqtisadi potensialı ilə bütöv Avropadan böyükdür!

Müqayisə üçün deyim ki, Pekindəki ən böyük səfirliklərdən biri Ermənistanındır və şəhərin ən bahalı yerində yerləşir, diplomatlarının sayı da bizimkindən çoxdur!

Baxmayaraq ki, BMT Təhlükəsizlik şurasının 5 daimi üzvündən biri olan Çin Azərbaycanın ərazi bütövlüyünü tanıyır, Qarabağı Azərbaycanın tərkib hissəsi sayır və bütün platformalarda Azərbaycan lehinə, Ermənistanın əleyhinə səs verir!

Onu da qeyd edim ki, Çinin özünün internet sosial şəbəkələri var və xüsusi proqramlar yüklənməsə burada bizim geniş istifadəsinə öyrəşdiyimiz facebook, youtube, whatsapp kimi şəbəkələrdən istifadə etmək mümkün deyildir. Rouminq danışıq xidməti çox bahalıdır və bu, Çinin deyil, bizim Azercell-in problemidir. Bunlar ilk baxışda əhəmiyyətsiz görünən detallar olsa da, Çin-Azərbaycan menasibətlərinin yüksəlməsinə, turistik və ticari əlaqələrin intensivləşməsinə çətinlik yaradan əngəllərdir. Münasibətin birinci şərti ünsiyyətdir, kommunikasiyaların olmasıdır.

Səfirlik işçilərinin yardımı ilə telefonlarımızı yerli və beynəlxalq şəbəkələrə uyğunlaşdırdıq, baqajlarımız gəldikdən sonra bizim üçün açılmış iki mikroavtobusa əyləşərək (nümayəndə heyətinin başçısı kimi Hadi müəllimə ayrıca BMW ayrılmışdı və rəhbər





bu üstünlüyünü axıra qədər məmnuniyyətlə qorudu, saxladı və nümayiş etdirdi) Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin "Wanshou" hotelinə yola düşdük.

Pekinin mərkəzindən bir qədər aralıda yerləşən Wanshou" hoteli ÇKP MK-in Pekindəki 10-dan çox qonaq evindən biridir. Təxminən 4 ulduzlu otel səviyyəsində olan bu mehmanxana Sovet İttifaqındakı analoji partnomenklatura deyilən kəsimin ÇXR paytaxtına gələrkən (eləcə də partiyanın xarici qonaqlarının) qaldığı yer kimi hər bir normal şəraiti vardır.

Oteldə qonaqlama və restoranda 3 dəfə yemək Çin tərəfinin hesabına ödənilirdi. Gəlişimizi nəzərə alaraq restoranda ənənəvi Çin mətbəxilə yanaşı Avropa mətbəxinin yeməkləri də var idi və bu səbəbdən 2016-cı ildəki gəlişimizdən fərqli olaraq qidalanma problemi ilə üzləşmədik.

Bir qədər də Çin mətbəxi haqqında. Çin mətbəxinin qədim tarixi və ənənəsi vardır. Əgər Qərbdə fransızlar öz süfrə mədəniyyəri və mətbəx ənənələri ilə tanınırlarsa, Şərqdə bu sözləri rahatca çinlilər haqqında söyləmək olar. Çini yaxşı tanımayan hər hansı turistə ilk baxışda çin mətbəxi qat-qarışıq, öz orqanoleptik xüsusiyyətləri ilə fərqli, bəzən yemək üçün uyğun olmayan inqredientlərdən hazırlanmış, formaca müxtəlif, olduqca geniş diapazonda dəyişən dad və qoxusu olan yeməklərin hazırlanması, əslində tarixi ənənədən gələn fəlsəfi düşüncə və inanclarla bir harmoniya təşkil edir. Çin mətbəxinin ən məşhur yeməkləri Pekin ördəyi, qızardılmış düyü, yüzillik yumurta və tısbağa şorbası hesab olunur. Çin inanclarına görə it və pişik ətinin sərinləşdirici təsiri vardır və buna görə də bu ərzaqlardan əsasən ilin isti vaxtlarında yeməklər hazırlamağa üstünlük verirlər.

Çin erkən orta əsrlərdə qonşu hun moğol türklərinin çapqınlarına məruz qalıb əsarətə düşdükdən sonra burada uzun illər möhkəm aclıq hökm sürmüş, əhali sözün əsl mənasında daşdan yumşaq nə var, yeməyə məcbur olmuşdur. Ona görə də, çinlilər deyirlər ki, biz hərəkət edən nə var - sürünən, qaçan, uçan, üzən - nə qarşımıza çıxsa yeyirik. Qidalarının çoxunu həşəratlar - sürünənlər təşkil edən bu böyük xalqa yarım vegeterian da demək olar. Çinlilər qədim yemək və xidmət mədəniyyətlərini qoruyub saxlayıblar və bununla qürur duyurlar.

Yüngülvari nahardan sonra rəsmi geyimdə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq şöbəsinə - xanım Van Minlə görüşə yollandıq. Xanım Van Min şöbə müdirinin müavini - sovet vaxtının təmtərağı ilə desək, - zam. zav. otdel ÇK vəzifəsində işləyirdi. 2016-cı ildəki gəlişimizdə də bu xanımla görüşdüyümüzdən köhnə dostlar kimi salamlaşdıq.

Kifayət qədər gənc görünən, savadlı və enerjili qadın olan xanım Van Min xarici görkəmcə heç dəyişməmişdi, 3 il əvvəl gördüyümüz kimi idi. Eləcə köhnə dostumuz Can da heç dəyişməmişdi. Dəyişən yalnız Canın saç düzümü idi: başının yarısında saçını qırxdırmış, yarısında isə saçı uzun saxlamışdı. Dedilər ki, indi Çində belə saç düzümü dəbdədir. Hərçənd ki, belə saç düzümlü adamı bizim Gəncədə görsələr - yəqin ki, parabeyindi, - deyərdilər. Amma bu Can nəinki parabeyin deyil, çox sadəlövh görünən, olduqca savadlı və filosof qədər dərin bilikli ağıllı adam idi. Van Min də, Can da Moskvada təhsil aldıqlarından rusca kifayət qədər yaxşı bilirdilər. Ancaq görüş rəsmi xarakter daşıdığında Çin tərəfi öz dilində danışır, Maşa dediyimiz Li Zhujun isə ruscaya tərcümə edirdi.

*(Ardı növbəti sayımızda)*

## YAP Binəqədi rayon təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib. Görüşdə bir sıra məsələlər müzakirə olunub və fikir mübadiləsi aparılıb. Görüşü YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov açaraq, görüşün çox əlamətdar bir günə - "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyinə təsadüf etdiyini vurğulayıb. Bildirib ki, "Əsrin müqaviləsi"nin imzalanması Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən olub, ölkəmizin iqtisadi potensialının yüksəldilməsi və xalqımızın rifah halının daha da yaxşılaşdırılmasına əsaslı zəmin yaratmışdır: "Bu müqavilə, həm də ölkəmizin qüdrətinin daha da artmasına və sosial islahatların davamlı xarakter almasına gətirib çıxarmışdır." R.Göyüşov çıxışında 10-17 sentyabr tarixlərində YAP nümayəndə heyətinin Çinə işgüzar səfərində iştirak etməsindən və səfər çərçivəsində keçirilən mühüm görüşlərdən söhbət açıb, təəssüratlarını bölüşüb. Həmçinin, 19 sentyabr tarixində YAP Binəqədi və YAP Pirallahı rayon təşkilatlarının birgə təşkilatçılığı ilə tarixi Neft Daşlarına edilən ziyarət və orada keçirilən rəsmi tədbir haqqında ətraflı məlumat verib.

R.Göyüşov çıxışında qarşıdan gələn bələdiyyə seçkilərinə toxunaraq, seçkilərin tarixindən və yüksək əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, rayon təşkilatı partiya rəhbərliyinin tapşırıq və tövsiyyələrinə uyğun olaraq artıq seçkilərə hazırlıqlara başlayıb. Tədbirdə ilk partiya təşkilatlarında uçot-dəqiqləşdirmə işlərinin mütəmadi və operativ olaraq aparılmasının vacibliyini bildirib. Partiya üzvləri ilə daim ünsiyyətin saxlanılmasının və onlarla birgə layihələrin, tədbirlərin keçirilməsinin önəmini qeyd edib.

R.Göyüşov çıxışının sonunda günümüzün mühüm sosial ünsiyyət vasitələrindən biri olan sosial şəbəkələrin aktiv rolundan danışıb. Vurğulayıb ki, partiya üzvləri sosial şəbəkələrdə daim fəal olmalı, dövlət başçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm iqtisadi, siyasi və sosial islahatlar barədə maarifləndirici məlumatlar paylaşmalıdırlar. Həmçinin, dövlətimiz və ölkə rəhbərliyi haqqında əsassız informasiyalar yayan, ictimaiyyəti çaşdırmağa cəhd edən xaricdən maliyyələşən bir qrup insan ifşa edilməli və həqiqətlər diqqətə çatdırılmalıdır.

*ZÜMRÜD BAYRAMOVA*

## Suraxanı rayonunun Bülbülə qəsəbəsində növbəti səyyar qəbul-görüş keçirilib



Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasovun Bülbülə qəsəbəsi, Nəriman Nərimanov küçəsində yaşayan sakinlərlə 208 nömrəli tam orta məktəbin akt zalında növbəti səyyar qəbul-görüşü olub. Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının sektor müdiri Tağı Tağıyev, dövlət orqanlarının yerli idarələrinin və xidmət sahələrinin rəhbərləri iştirak edib.



Rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov sakinlərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən cari ildə qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlar, eyni zamanda, problemli kreditlər sahəsində vətəndaşların maliyyə yükünün azaldılması və müavinətlərin artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Sonra Suraxanı rayonunda, o cümlədən, Bülbülə qəsəbəsində görülməsi nəzərdə tutulan abadlıq-quruculuq işləri haqqında iştirakçılara məlumat verən rayon rəhbəri sakinləri narahat edən müxtəlif məsələlərə aydınlıq gətirib, müvafiq izahatlar verib və qaldırdıqları məsələlərin həlli istiqamətində rayonun əlaqədar qurum və təşkilatların rəhbərlərinə yerindəcə tapşırıqlar verib və onların həlli nəzarətə götürülüb.

*ZÜMRÜD BAYRAMOVA*

## Paytaxtımız "Dünya dini liderlərinin II Bakı Sammiti"nə hazırlaşır

*Sammit sivilizasiyalararası dialoqun inkişafına və qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfə olacaq*



***Azərbaycanda müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi, artıq ənənəyə çevrilmişdir.***

Azərbaycan dövləti tərəfindən mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın təşviqinə yönələn beynəlxalq miqyaslı tədbirlər onun mədəni müxtəlifliyə dəstəyinin bariz göstəricisidir. Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır. Ölkəmizin durmadan artan beynəlxalq nüfuzu, mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir. Bütün bunlar Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini dünya ictimaiyyətinə təqdim edir.

Məlumdur ki, 2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Bakı Prosesi" təşəbbüsünü irəli sürülmüşdür. Ötən illər ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır.

### DÜNYANIN MÜASİR ÇAĞIRIŞLARININ NÜFUZLU DİNİ-İCTİMAİ XADİMLƏRİN İŞTİRAKI İLƏ MÜZAKİRƏSİ AKTUALLIQ KƏSB EDİR

Qlobal sülhün qorunması, dayanıqlı inkişaf, ədalətli bölüşmə, regional rifah və inkişafda uçurumun azaldılması önəmli hədəflər sırasındadır və belə mövzular müzakirə edilərək, mühüm qərarlar qəbul edilir. 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş sammitini sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyaların əməkdaşlığının genişlənməsinə, eləcə də, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfədir. Azərbaycanda yaxın zamanda - 2019-cu il 14-15 noyabr tarixlərində "Dünya dini liderlərinin II Bakı Sammiti" keçiriləcək. Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi, ayrı-ayrı regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu dini-ictimai xadimlərin iştirakı ilə birgə müzakirəsi aktuallıq kəsb edən məsələlərdəndir. Məlumdur ki, "Dünya dini liderlərinin II Bakı Sammiti"nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti 11 aprel 2019-cu il tarixində Sərəncam imzalamışdı. Sammitin keçirilməsi məqsədilə yaradılan Təşkilat Komitəsində dövlət və hökumət qurumlarının, ictimai təşkilatların, dini qurumların rəhbərləri və nümayəndələri təmsil olunurlar. Prezident İlham Əliyevin "Dünya dini liderlərinin II Bakı Sammiti"nin keçirilməsi haqqında Sərəncam imzalaması və bunun üçün Təşkilat Komitəsinin yaradılması barədə göstərişi də, ölkəmizdə dini və milli məsələlərə nə dərəcədə həssas yanaşılmasının göstəricisidir. Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi, bir tərəfdən, Azərbaycanda dini tolerantlığa töhfə kimi qəbul olunacaq, eyni zamanda, müxtəlif ölkələrdən olan dini liderlər, ayrı-ayrı dini konfessiyaların nümayəndələri bəşəriyyəti narahat edən problemlər ətrafında fikir mübadiləsi apara biləcəklər.

### SÜLHƏ NAİL OLMAQ İMKANLARINA MANEƏ TÖRƏDƏN QEYRİ-SABİT DÖVLƏTLƏR AZƏRBAYCANDAKI ƏMİN-AMANLIQDAN BƏHRƏLƏNMƏLİDİRLƏR

Multikulturalizm siyasəti vasitəsilə etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətləri dünya ictimaiyyəti yüksək dəyərləndirir. Bu gün bir çox dövlətlər Azərbaycanın bu sahədəki uğurlu təcrübəsini öyrənir. Mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilmiş bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin və multikulturalizm təcrübəsinin təbliği baxımından, son dərəcə mühümdür. Belə tədbirlər daha da geniş bir şəkildə beynəlxalq miqyasda keçirilməkdədir. Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafını, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsi olaraq, bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır. Təbii ki, belə tədbirləri keçirməkdə Azərbaycanın iqtisadi gücü olması ilə yanaşı, ölkədə əmin-amanlığın, sabitliyin hökm sürməsi də mühüm faktorlar sırasındadır.

Multikultural dəyərlərə sahib olmaq anlaşılmazlığa, fobiyaya, milli və dini münaqişələrə son qoymaq deməkdir. Ölkəmizdəki bu tolerant mühitin yaradılması və inkişafı, bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır."Tolerantlıq, dözümlülük çox geniş anlayışdır" deyən Ulu Öndər Heydər Əliyev onun həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aid olduğunu bildirirdi: "O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Avantüraçı siyasət uğursuzluğa aparır

## Nikol Paşinyan çıxılmaz durumda



***"Hələ deputat olanda, Nikol Paşinyan bir dəfə parlamentdə çıxışında bəyan etmişdi ki, satqınlığın əsasında yalan durur və bu yalanı dilinə gətirən insan heç kimi yox, özünü aldadır". Bu sözləri özünün "facebook" səhifəsində Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov yazıb. Daha sonra isə, baş nazirin verdiyi bəyanatların və vədlərin yalan olduğunu bildirib. "Məsələn, Paşinyan deyirdi ki, vendetta olmayacaq - amma var. Paşinyan ümumi birlik vəd edirdi. Lakin cəmiyyəti "ağlara" və "qaralara" böldü. Məhəbbət və razılıq əvəzinə, nifrət aşılamağa başladı. Bundan əlavə, pensiyalarla bağlı artım olacağını bildirsə də, indi susmağa üstünlük verir. "Qırmızı xətlərə" qarşı çıxırdı - bu gün isə onlar mövcuddur. Baş nazir videokameralara qarşı çıxırdı - bu gün isə onlar hələ də qalır" deyə parlamentin keçmiş vitse-spikeri vurğulayıb. Əlavə edib ki, baş nazir dəfələrlə vəd edirdi ki, ölkəyə investisiya axını baş verəcək. Amma hazırda hər hansı real investisiyadan söhbət gedə bilməz. Bütün sahələrdə inkişaf olacağını bildirirdi. Bu vədin də puç olduğu üzə çıxır. Avropa İttifaq ilə razılaşmanı təbliğ edirdi, indi isə, əksinə, onu tənqid edir. Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik üzrə Müdafiə Təşkilatına üzvlüyə qarşı çıxırdı. Bu gün isə, əksinə, bildirir ki, bu təşkilatlarda qalmaq və üzvlük vacibdir.***

Sonda isə, bildirib ki, əcnəbi casuslar barədə N.Paşinyanın bəyanatı növbəti məqsədsiz bir şou idi. E.Şarmazanov başqa bir açıqlamasında hesab edir ki, Ermənistanın indiki rəhbərliyi hər sahədə əvvəlkindən geri qalır. Onun sözlərinə görə, indiki rəhbərlik, mütəmadi olaraq, cəmiyyəti müxtəlif düşərgələrə bölür: "Bundan əlavə, Paşinyan bu siyasəti tək Ermənistan daxilində deyil, eləcə də, Dağlıq Qarabağdakı rejimlə münasibətlərdə də nümayiş etdirir". E.Şarmazanov bu qənaətdədir ki, Paşinyan qisas hissi ilə alışıb yanır: "Əsas məramı separatçıların lideri Bako Saakyandan eks-prezident Robert Koçaryanı dəstəklədiyinə görə qisas almaqdır. Bu cür siyasət isə, Bakı və Ankaranın dəyirmanına su tökmək deməkdir".

E.Şarmazanov Paşinyanı separatçı qurumu danışıqlar stolu arxasına cəlb etməməkdə ittiham edib. Keçmiş vitse-spiker hazırkı baş nazirin verdiyi vədlərin heç birinin reallaşmadığına da işarə edib: "Paşinyan bildirir ki, ölkəmizdə demokratiya inkişaf edir. Siz Allah, deyin görüm, hansı demokratiyadan söhbət gedə bilər ki, baş nazir məhkəmə binalarını ələ keçirməyə və hakimlərin işinə mane olmağa çağırır. Baş nazir hər dəfə deyir ki, bizim hakimiyyətin dövründə ölkədə totalitarizm hökm sürürdü. Axı ancaq bizim hakimiyyət dövründə əvvəlcə deputat oldu, sonra isə baş nazir. Məgər totalitar rejimdə belə şeylər mümkün ola bilərdimi?" Daha sonra o, baş naziri iqtisadi inqilab, yüksəlişin baş verəcəyi barədə verdiyi vədləri də yerinə yetirməməkdə günahlandırıb: "Baxın görün nə baş verir? İnvestisiyaların həcmi azalıb, müəssisələr bağlanıb, işsizlik yüksək həddə çatıb. Paşinyanın yaxın ətrafını nəzərə almasaq, insanların vəziyyəti əvvəlki təkdir".

### Paşinyanın ətrafı boşalır

Məlum olduğu kimi, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan və onun ardınca isə, Ermənistan Polisinin rəisi Valeri Osipyan tutduqları vəzifədən istefa verməléri, ardınca isə, iki baş müşavini istefaya göndərməsi ölkədə yaranmış durumu daha da çətinləşdirib. Erməni mətbuatının məlumatına görə Arsen Qasparyan dərhal, Aram Qaribyan isə, sentyabrın 2-dən postunu tərk edib. Həmçinin, baş nazirin köməkçisi Mher Sahakyan da vəzifəsindən uzaqlaşdırılıb. Həmçinin, Ermənistan mətbuatının yazdığına görə, Müdafiə naziri David Tonoyanın da tutduğu postdan gedəcəyi də bildirilir. Politoloqlar güc strukturları rəhbərlərinin istefa səbəblərini şərh edərək bildirirlər ki, müxalif qüvvələrin Ermənistan hökumətinə kifayət qədər təsiri var. Həm müxalif, həm də hökumətdəki bəzi qüvvələr Ermənistanın baş naziri Nikol Paşinyanın daxili və xarici siyasətinin əleyhinədirlər: "Nikol Paşinyan hakimiyyətə gəldiyi zaman verdiyi vədləri reallaşmayıb. Ermənistanın vəzifəli şəxsləri də müəyyən dərəcədə buna öz narazılıqlarını bildirirlər. Ermənistanda vəzifəli şəxslərin ard-arda istefası onu göstərir ki, Paşinyan komandasını formalaşdıra bilməyib və formalaşmamış vəzifəli şəxslər N.Paşinyanı tərk edirlər".

### Martirosyan: "Azərbaycanın artan uğurlarını Dağlıq Qarabağda ən qatı separatçılar da inkar edə bilmir"

Ermənistan eksperti Martirosyan bildirib ki, "30 il ərzində, Dağlıq Qarabağ özünü, hətta kənd təsərrüfatı məhsulları ilə təmin edə bilməyib, Ermənistanın dövlət büdcəsindən ayırmalar və diaspordan gələn yardım hesabına yaşayır. Dağlıq Qarabağda əhalinin sayında azalma var. Süni vasitələrlə doğumu artırsalar da, artıq bu ildən hər şey yenidən azalma istiqamətindədir. Dağlıq Qarabağa Ermənistan dövlətinin və dünya erməniliyinin etdiyi yardımın pik dövrü arxada qalıb. Bu dövrdə bir şey əldə edə bilməyiblərsə, gələcəkdə də heç bir irəliləyiş əldə edə bilməzlər. Azərbaycanın artan uğurlarını Dağlıq Qarabağda ən qatı separatçılar da inkar edə bilmir".

Bu gün Ermənistan rəhbəri Nikol Paşinyan etdiyi səhvləri dönə-dönə təkrarlayır.

### Özünə qəbir qazan Serj Sarkisyanın dublikatı Paşinyan

Bəli, işğalçı ölkədə baş verən bütün bu kriminal vəziyyətdən sonra yenə də Paşinyan anlamır ki, artıq hakimiyyətdən getməsi yaxınlaşır. Bu, təəccüb də doğurmur. Çünki bu günə kimi, Ermənistanın nə ağıllı bir rəhbəri olub, nə də düzgün xarici siyasəti. Məhz bunun nəticəsidir ki, fəlakətlər burulğanından çıxa bilmir və bilməyəcək də. Yanlış xarici siyasətinin bu ölkəni daha böyük fəlakətlərə düçar etməsi fonunda, vaxtı ilə sabiq prezident Serj Sarkisyan iqtidarına qarşı sərgilənən narazılıq bu gün işğalçı ölkənin baş naziri Nikol Paşinyana qarşı durmadan artır.

Bəli, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, bu gün də Ermənistan cəmiyyət olaraq tənəzzüldədir. Bu gün də insanlar ölkəni tərk edir, iqtisadi böhran dərinləşir və istefalar baş verir. Bunların fonunda N.Paşinyanın verdiyi vədlərinin puç olduğu aydın görünür. Çətin durumda olan Paşinyanın hakimiyyət kürsüsü uğrunda hərisliklə mübarizə aparması isə, təbii ki, vətəndaşları qıcıqlandırır.

Lakin bir məqamı da vurğulamaq lazımdır ki, bu gün də beynəlxalq aləmdə Ermənistanın düşdüyü vəziyyət daha acınacaqlıdır. Nikol Paşinyan, sözün həqiqi mənasında, geosiyasi burulğanda çabalayır. Daha dəqiq desək, pərdə arxasından onun ipini kim hansı istiqamətə çəkirsə, ona uyğun mövqe tutur. Yəni ABŞ və Rusiya bu kuklanı daha tez-tez oynadırlar.

Küçə "demokratı" Nikol Paşinyan yenə də cəfəng fikirlər söyləyir, xarici siyasətdən bixəbər olduğunu aydın şəkildə göstərir. Səbəb isə, hakimiyyətdə olduğu müddətdə Nikol Ermənistan daxilində itirdiyi nüfuzunu Dağlıq Qarabağ münaqişəsi ətrafında absurd fikirlər söyləməklə, bərpa etməyə çalışsa da, əsassız və gülünc vəziyyətdə görünür.

Ümumiyyətlə, N.Paşinyanı çətin vəziyyətə salan əsas məqam Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu durmadan artırmasıdır. Bakı regionla bağlı çox perspektivli sosial-iqtisadi və mədəni proqramlar həyata keçirir. Təcrübə göstərir ki, Azərbaycanın yeritdiyi regional siyasət digər bölgə dövlətlərindən daha səmərəlidir. Ermənistan isə, bu kontekstdə, olduqca pis vəziyyətdədir. Heç bir regional layihə təklif edə bilməyən rəsmi Yerevan, qonşulara böhtan atmaqdan başqa, bir iş bilmir. Onun özünü təcrid etməsi, ölkəni tamamilə çıxılmaz geosiyasi vəziyyətə salıb.

### Yerevan çabalasa da, böyük buxovdan qurtula bilmir

Bəli, başqa yol da yoxdur. Çünki Paşinyan hələ də anlamır ki, Rusiya da onun bu günə kimi ikiüzlü "siyasətinin" dəfələrlə şahidi olub. Çünki bunun mümkün olmadığını hamı bilir.

Elə bu günlərdə Nikol Paşinyan keçirdiyi mətbuat konfransında bildirib ki, Qarabağ danışıqlarını Rusiyanın öhdəliyinə buraxıb. Jurnalistlər danışıqlardan imtinanın Azərbaycana müharibə hüququ vermək olduğunu xatırlatdıqda, Ermənistanın baş naziri deyib: "Rusiya supergüc kimi bizim regionda müharibəyə yol verməmək üçün imkanlara malikdir. Mən inanmaq istəmirəm ki, Ermənistanın strateci müttəfiqi Rusiya öz rıçaqlarından istifadə edib, müharibəni dayandarmayacaq. Mən inanmıram ki, Rusiya müharibənin başlamasına imkan verəcək və Azərbaycanı dayandırmaq üçün rıçaqlarından istifadə etməyəcək".

Bu açıqlama, nəinki Ermənistan, hətta Rusiya mətbuatında belə heyrətlə qarşılanıb. Rusiyanın "Lenta.ru" portalı mətbuat konfrasına həsr etdiyi məqaləsini "Ermənistan Qarabağ münaqişəsinin həlli üzrə məsuliyyəti Rusiyaya ötürdü" başlığı altında verib. Yəni məsuliyyət daşıyan dövlət hüquqa da malik olur. Bu, Zori Balayanın bir neçə il öncə, Vladimir Putinə yazdığı məktuba bənzəyir. Onda Balayan Rusiyaya təklif edirdi ki, "Gülüstan" sülh müqaviləsinə əsaslanıb, Qarabağı özünə götürsün. Bu, erməni millətçilərinin sərt reaksiyasına səbəb olmuşdu. Onlar iddia edirdilər ki, Qarabağ Ermənistanın ayrılmaz parçasıdır. Amma göründüyü kimi, indi eyni sözü Nikol da deyir.

Ancaq tarixi faktlar, onu da deməyə əsas verir ki, oxlokratiyanın ömrü heç də uzun olmur. Hələ ki, küçə və meydanlarda olan kütlə öz tələblərini irəli sürür və öz iradəsini diqtə edir. Paşinyan da bundan məharətlə və sui-istifadə edir. Lakin tarixdən də, göründüyü kimi, bu mərhələ uzun sürə bilməz və heç uzun sürməyəcək və təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam! Bu problemin həllinin bir yolu var: Ermənistanın havadarları güc tətbiq edərək, işğalçı erməni silahlılarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar!

**A.SƏMƏDOVA**

## Keçmiş məhkumun üzərindən 1 kiloqramdan artıq heroin aşkarlandı



Bakı şəhər Polis İdarəsi Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı növbəti əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Sabunçu rayonunda keçirilən əməliyyat zamanı əvvəllər Cinayət Məcəlləsinin dələduzluq mənimsəmə maddəsi ilə məhkum olunmuş paytaxt sakini Vaqif Qəmbərov tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman ümumi çəkisi 1 kiloqram 30 qram narkotik vasitə olan heroin aşkar olunaraq götürülüb. V.Qəmbərov narkotik vasitənin ona məxsus olduğunu və bir neçə ay əvvəl şəxsiyyəti istintaqa məlum olmayan tanışından aldığını bildirib. O, narkotik vasitəni əldə edəndən sonra yaşadığı Ramana qəsəbəsi ərazisində gizlədib. Faktla bağlı V.Qəmbərov barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Baş İdarənin əməkdaşları tərəfindən əməliyyat tədbirləri davam etdirilir.

# Məhəmməd Mirzəli Emin Milliyə və Xədicə İsmayıla "cəbhə" açdı

## *İttihamlar, söyüşlər və təhqirlər bir-birini əvəzlədi*

***AXCP-nin sədr müavini Fuad Qəhrəmanlının bəlli ifşasından sonra, dağıdıcı müxalifətin təmsilçiləri arasında aşkar ikitirəlik yaşanmağa başlayıb. Belə ki, Avropada "siyasi mühacir" adı altında hakimiyyətə qarşı söyüş kampaniyası aparan Məhəmməd Mirzəli bu dəfə Emin Millini və Xədicə İsmayılı hədəfə alaraq, onların F.Qəhrəmanlıya qarşı ifşaedici kampaniyalarına "Facebook" vasitəsi ilə münasibət bildirib və həmin məsələdə hər iki şəxsin bir sıra məqamlarını ictimailəşdirib.***



Mahammad Mirzali
20 saat ·

Keçmişə qayıdış.!
Ayravani - ayravani, çandirika, çitrakuda çitrakuda işverən.!

Khadija İsmayıl adın qoyub feminist və şiddətə qarşıyam deyir. Fuad Qəhramanlının həbsini istəyir. Deyir ailədəki zorakılığı içtimailəsdirib məsuliyyət tələb etmək lazımdır. O, zaman Xədicə İsmayılın porno videosu çıxanda qardaşı onu yerə yıxıb başını kəsməyə çalışıb. Sahvələd Çobanoğlu son anda bıçağı onun əlindən alıb, xilas edib. Bəs Xədicə nə onda, nə də ki, indi niyə bu ailədaxili şiddəti içtimailəşdirib qardaşını məsuliyyətə cəlb etdirmək istəmədi. Nərmin Şahmarzadə o, zaman niyə bir feminist kimi Xədicənin intim azadlığının məhdudlaşdırılmasına etiraz etmədi. Niyə o zaman bu feministlər İŞİD kimi baş kəsmək istəyən bir canini məsuliyyətdən gizlətdilər. Bəs nədən Xədicə və onu ölümdən xilas edən jurnalist Şahvələd bəy bunu ailənin iç məsələsi hesab etməyib, ictimailəşdirmədilər.?



01:11 23 Eylül Pzt

Facebook'da Ara

Giyaseddin Ibrahim'in gönderisine yaptığın yoruma verilen yanıtlar Gönderiyi Gör

Mahammad Mirzali
Ay xiyar sən öz kölgəndən qorxursan mən hələm videoda dedim ki, iti vurmayın yazıqdır. İçtimai qınayağa çəkin. Adamada oxşamırsan. Sənin yadından çıxıb ananı canlı yayına çıxıb sənin üçün çağrış edirki,. Heyif sənin anadan ki, sənin kimi mənasız bir şəxsə oğul deyir. Ay mənasız sən deyildin bir otaqlı evdə qalıb ananın hesabına yeyib içən.? İndi adam oldun.? Görürsən ala nə gündəsən? Mama gətir mən yeyim hə.? Bəlkəm daha açıq ifadə edim fikirlərimi.? Ailənin niyə dağılması şiddət filan.... birdə yaddan çıxmamış deyursən reytinq yığır filan alan sən özünü nə hesab edirsən.?) aç baxda ala korsan ən az videoya 200 min baxış gəlir. Amma sənin kimi dövləti deyil hakimiyyəti tənqid lazım gəldikdə təhqir edirəm

6d Beğen Yanıtla

### Xədicə İsmayılın intim videolarını Emin Milli yayıb?

E.Millinin 2012-ci ildə evini X.İsmayıla verib, sonradan intim videosunu yaydığını iddia edən M.Mirzəli yazıb ki, həmin vaxtlar E.Milli guya "hakimiyyətə işləyib" və s. "Həmin dövrlərdə E.Milli ilə yaxından dost olan şəxsin şəxsən mənə dediyinə görə, Emin özü ölkədəki jurnalistlərə, ictimai sektor fəallarına evini cütlüklərin görüş yeri kimi istifadə etməyi təklif edirmiş" deyə yazan M.Mirzəlinin iddia etdiyinə görə, daha sonra məlum olub ki, həmin evdə təkcə qeyd etdiyi jurnalist yox, digər ictimai fəalların da videosu çəkilib. Beləliklə, o, "Meydan" TV-nin keçmiş rəhbərinin guya hakimiyyətlə əlbir olduğunu iddia edərək, hətta E.Millinin özünün öz xoşu ilə bu işə getdiyini bildirib.

Əlbəttə ki, bu kimi sərsəm iddialarla AXCP-yə və rəhbərliyinə qahmar çıxmağa çalışan M.Mirzəlinin başqa yolu da qalmır. Biz də-fələrlə şahidlərinə çevrilmişik ki, əgər dağıdıcı müxalifətdə ziddiyyətlər yaranırsa, həmin ən tərəflər bir-birlərini, məhz bu kimi ittihamlarla suçlayırlar.

Beləliklə, E.Millinin, hətta ingilis dilində post paylaşaraq, müxalifətçilərə qarşı kampaniya apardığını da iddia edən M.Mirzəli, həmçinin, yazıb ki, onun barəsində bəzi məqamları beynəlxalq təşkilatlara (yəni Azərbaycan əleyhinə fəaliyyət göstərən qurumlara-R.N.) çatdıracaq və s. SİTAT: "...Bu yazımın müxtəlif dillərə tərcümə elətdirib, Eminin qrant aldığı təşkilatlara bir-bir göndərəcəm. Təsəvvür edin, bu adam beynəlxalq təşkilatlara müraciət edib, Azərbaycanda söz azadlığı, müstəqil jurnalistikanın inkişaf etdirilməsi adı altında pul alır, sonra isə səhifəsində iqtidara qarşı mübarizə aparan müxalifətə qarşı post paylaşıb, həmin postu pulla reklam edir".

### Məhəmməd Mirzəli Xədicə İsmayılı "işverən" adlandırıb

X.İsmayılı E.Millinin evində intim videosunun çəkilməsi məsələsində müdafiə etmədiyini digər statusu ilə ictimailəşdirən M.Mirzəli qarşı tərəfi daha sərt şəkildə ələ salaraq təhqir edib. "Keçmişə qayıdış" bağlığı ilə status paylaşan Mirzəli X.İsmayılı xarakterik istehza üsulu ilə "işverən", yəni satqın adlandırıb.

"Ayravani-ayravani, çandirika, çitrakuda, çitrakuda işverən" fikirlərini yazmaqla, o, X.İsmayılın özünü feminist kimi təqdim etməsini ələ salıb və bildirib ki, o, F.Qəhrəmanlının tutulması marağındadır. SİTAT: "Fuad Qəhramanlının həbsini istəyir. Deyir ailədəki zorakılığı ictimailəşdirib, məsuliyyət tələb etmək lazımdır. O, zaman Xədicə İsmayılın pornovideosu çıxanda, qardaşı onu yerə yıxıb, başını kəsməyə çalışıb. Şahvələd Çobanoğlu son anda bıçağı onun əlindən alıb, xilas edib. Bəs Xədicə nə onda, nə də ki, indi niyə bu ailədaxili şiddəti ictimailəşdirib, qardaşını məsuliyyətə cəlb etdirmək istəmədi. Nərmin Şahmarzadə o, zaman niyə bir feminist kimi, Xədicənin intim azadlığının məhdudlaşdırılmasına etiraz etmədi. Niyə o zaman bu feministlər "İŞİD" kimi baş kəsmək istəyən bir canini məsuliyyətdən gizlətdilər? Bəs nədən Xədicə və onu ölümdən xilas edən jurnalist Şahvələd bəy bunu ailənin iç məsələsi hesab etməyib, ictimailəşdirmədilər?"

### AXCP fəalı Qiyasəddin İbrahim və anası da Məhəmməd Mirzəli tərəfindən təhqir obyektinə çevrilib

Bu da son deyil. Belə ki, AXCP fəalı Qiyasəddin İbrahimi də söyüş hədəfinə alan M.Mirzəli onun F.Qəhrəmanlıya qarşı çıxıb, feministləri müdafiə etməsini valideyninə və özünə ən ağır söyüşlər ünvanlamaqla fikir bildirib. Həmin statusu müəyyən orfoqrafik düzəlişlərlə təqdim edirik: "Ay xiyar, sən hələ öz kölgəndən qorxursan, mən hələ videoda dedim ki, iti vurmayın, yazıqdır. İctimai qınağa çəkin. Adama da oxşamırsan. Sənin yadından çıxım, anan canlı yayıma çıxıb, sənin üçün çağırış edirdi ki..? Heyf sənin anandan ki, sənin kimi mənasız bir şəxsə oğul deyir. Ay mənasız, sən deyildin bir otaqda qalıb ananın hesabına yeyib-içən? İndi adam oldun? Görürsən alə, nə gündəsən? Mama, gətir mən yeyim, hə? Bəlkə daha açıq ifadə edim fikirlərimi? Ailənin niyə dağılması, şiddət-filan... Bir də yaddan çıxmamış deyirsən, reytinq yığır-filan, alə sən özünü nə hesab edirsən? Aç bax da, alə korsan, ən azı videoya 200 min baxış gəlir. Amma sənin kimi dövləti deyil, hakimiyyəti tənqid, hətta yeri gələndə, təhqir də edirəm".

Beləliklə, yalnız bu məsələdə deyil, digər məsələlərdə də bir-birlərinin paxırlarını, gizlinlərini açığa çıxaran, satan və satılanların "zümrəsi", sözün əsl mənasında, savaş meydanı açıblar və M.Mirzəlinin Əli Kərimliyə və F.Qəhrəmanlıya qarşı çıxanları ən ağır şəkildə hədəfə alması da, çox yəqin ki, elə AXCP sədri tərəfindən sifariş olunub. Hər halda, faktlar bütün dəqiqlikləri ilə göz önündədir və belə qarşıdurmaların sayı hər gün artmağa başlayıb.

***Rövşən RƏSULOV***

# Əli Kərimlinin trol şəbəkəsində qarşıdurma

## *AXCP sədrinin "qızıldan dağ" vəd etdiyi aldadılmış kəvakibləri, artıq onun yalan danışdığını və riyakar olduğunu qətiləşdiriblər*

***AXCP sədri Əli Kərimlinin başının üzərindən qara buludlar əksik olmur. Onun müavini Fuad Qəhrəmanlının qız övladları və həyat yoldaşına qarşı amansız davranışlarının və şiddət göstərməyinin ardınca istefa verməsi faktı cəbhədaxili, istərsə də düşərgənin digər cinahında fəaliyyət göstərən müxalifətçilərin ciddi qınağına səbəb olub. Sərt şəkildə qınanılan Ə.Kərimlinin istefası tələb olunur, xüsusilə, bildirilir ki, əgər Ə.Kərimli öz partiyası daxilindəki vəziyyəti idarə edə bilmirsə, onun müavini öz ailəsində, necə deyərlər, "baş kəsib, qan tökürsə" onlar hakimiyyətə gəlsələr, bütün xalqa qarşı qaniçən siyasət aparıb, ölkəni viran qoyacaqlar. Bu və bu kimi çoxsaylı bənzər, eləcə də, bir-birini tez-tez əvəzləyən AXCP-daxili olaylar kontekstində gedən çoxsaylı müzakirələr bitməmiş, onlara daha biri də əlavə olundu. Daha dəqiq desək, Ə.Kərimlinin trol şəbəkəsi daxilində yaranmış böhran üzə çıxdı.***

### AXCP Ali Məclisinin üzvü Rəşid Turabov: "Əgər sizi görmürüksə, siz nə üçün varsınız?"

Belə ki, mətbuat AXCP Ali Məclisinin üzvü Rəşid Turabovun trolların idarə olunduğu qapalı "WhatsApp" qrupuna göndərdiyi səs yazısını ictimailəşdirdi və Ə.Kərimlinin trol şəbəkəsinin içində yaşanan ziddiyyətlər, artıq nəyin-necə olmasını bütün çılpaqlığı ilə ortaya qoymuş oldu. Səs yazısında etiraf olunur ki, trolların çalışmaları zəifdir və heç bir nəticə vermir. SİTAT: "Bir çox cəbhədaşlarımız var ki, oturub bu qrupda. Əsəblərim artıq partlayır. Kim cəbhəçi ismini daşıya bilmirsə, desin ki daşıya bilmirəm. Sadəcə, protokollarda cəbhəçi adını daşımaqla, heç nə əldə edə bilməzsiniz. Zatən, biz monitorinq aparırıq və kimin nə iş gördüyünü bilirik. Uşaq oyuncağı ilə oynamırıq burada. Mən, Ayaz Məhərrəmli, Süleyman, Mahir bəy qaçırıq ora-bura. Amma Vasif Müzəffərovu görmürük. Rahad bəyi ildə-ayda bir dəfə görürük. Digər dostlarımız var ki, onları görmürük. Əgər sizi görmürüksə, siz nə üçün varsınız?"



Beləliklə, təkcə bu ittihamlardan da nəticə çıxarmaq mümkündür ki, artıq uzun müddətdir ki, Ə.Kərimlinin "qızıldan dağ" vəd etdiyi cəbhənin aldadılmış kəvakibləri, yəni trolları, artıq onun yalan danışdığını və riyakar olduğunu qətiləşdiriblər. Bu səbəbdən də, trol fəaliyyətlərini, ya ümumiyyətlə icra etmir, ya da trolluqlarında fasilələr verib, bu vasitə ilə AXCP sədrindən maliyyələşmələrinin artırılmasını gözləyirlər. Çünki bundan da əvvəl, belə bir məlumat yayılmışdı ki, Ə.Kərimli trol şəbəkəsinə maliyyəsini azaldıb və ona görə də, etirazlar baş qaldırıb.

R.Turabovun səs yazısında daha bir maraqlı nüans nəzərə çarpır.

### "İsgəndər bəy feministdir, gedir jurnalist qızlarla pivə vurur"

Digər tərəfdən, AXCP-çi funksioner orada deyir ki, bir çoxları bəhanələr gətirib, trolçuluq fəaliyyətindən birdəfəlik imtina etmək istəyirlər: "İsgəndər bəy deyir mən feministəm, çıxır gedir dənizə. Sən burada cəbhəçi ola bilirsənsə ol, ola bilmirsənsə, get harada istəyirsən, feminist ol. Əgər sizdən bir şey olmayacaqsa, gedim yeni üzvlərə vaxtımı sərf edim, bəlkə onlarla nəsə alındı. Bezdirmisiz artıq, mən niyə hər dəfə xəbərdarlıq yazmalıyam. Mən səni Əli bəyin səhifəsində görmürəm. Bəs nə işlə məşğulsuz? İsgəndər bəy feministdir, gedir jurnalist qızlarla pivə vurur. Çox gözəl, heç olmasa, gəl Əli bəyin statusunun altında yaz. Vasif bəy, bəs sən hardasan? Heç olmasa, gəl Əli bəyin statusunun altında yaz, qisasını al. Şüvəlan qrupundan Natiq və Tahir bəyi görmürük. Rəşad, Lütvi bəy, sizi də görmürük. Biz sizin də yükünüzü daşımalıyıq?"

### Əli Kərimlinin vaxtı bitib, siyasi ölüm saatı isə çox yaxındadır

Beləliklə, artıq hər şey göz önündədir və fakt budur ki, Ə.Kərimlinin trol şəbəkəsi, sözün əsl mənasında, pərən-pərən olub. Bu ziddiyyətlər isə, bir daha belə qənaətə gəlməyə əsas verir ki, bütövlükdə, AXCP-də baş verən ardıcıl məlum olaylar, bilavasitə Ə.Kərimlinin istefası, cəbhənin isə iflası reallığını sürətləndirir. Hətta onun baş verənlərin birinci plana çıxıb, mitinq planını ikinci tərəfə keçməsi məsələsi ətrafında status paylaşması, mitinqin yenidən birinci plana çıxması vacibliyi ilə bağlı yazdığı statusu da, ona heç bir səmərə gətirmir. Çünki Ə.Kərimlinin vaxtı bitib və siyasi ölüm saatı isə çox yaxındadır.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifətin mitinq şousu baş tutmayacaq

**_Müxalifətdaxili partiyalararası qarşıdurmalar fonunda “Milli Şura” deyilən qondarma qurum növbəti dəfə aksiya keçirmək arzusu ilə sosial şəbəkələrdə statuslar paylaşır. Söz yox ki, aksiyanın planlaşdırılması qondarma qurumun təsisçilərinin beyninin məhsulu deyil. Yəni onları uğursuz görünən aksiyanın keçirilməsinə təhrik edən xarici maraqlı dairələr var. Söhbət etdiyimiz müsahiblərimiz də, o fikirdədirlər ki, müxalifət xarici maraqlı dairələrdən maddi və mənəvi baxımından asılıdır._**

## “Yurddaş” partiyasının sədri Mais Səfərli: **“Müxalifətin aksiya keçirməsi yolverilməzdir”**



- Bildiyiniz kimi, qarşıdan seçkilər ili gəlir. Gələn il Azərbaycanda parlament seçkiləri ilidir. Bu ilin sonunda isə, bələdiyyələrə seçkilər keçiriləcək. “Milli Şura” deyilən qurumun başqa heç bir siyasi fəaliyyəti yoxdur. Əslində, elə həmin qurum AXCP-dən ibarətdir. Yəni orada başqa siyasi təşkilatlar təmsil olunmayıbdır. Artıq AXCP də iflasa uğramış bir təşkilatdır. Demək olar ki, indi onlar bu seçkilər ərəfəsində fəallaşırlar ki, Qərbin müəyyən dairələrinin diqqətini özlərinə cəlb etsinlər və bununla da, özlərinə müəyyən maliyyə qaynaqları əldə etsinlər. Düzdür, Azərbaycanda istənilən siyasi partiyalara hüquq verilib ki, onlar istənilən kütləvi tədbirlər keçirə bilərlər. Ən çox da, yeri gəlmişkən, bu hüquqdan elə müxalifət partiyaları istifadə edib və etməkdədirlər. Bu günlər müxalifət tərəfindən yersiz aksiyaların keçirilməsinə heç bir ehtiyac yoxdur. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən qüvvələr çalışırlar ki, mitinq keçirsinlər və həmin mitinqlərdə gündəmə gəlsinlər. Yəni bu cür anormal mitinqlər vasitəsi ilə “bizdə varıq” demək istəyirlər. Amma nə etmələrindən asılı olmayaraq, onlar nəyə isə nail ola bilməyəcəklər. Çünki sözügedən bu qüvvələrin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Belə olan halda, onlar hansı mitinqlərin keçirilməsindən danışırlar? Bir sözlə, hər zaman olduğu kimi, müxalifətin budəfəki mitinqləri də uğursuzluğa düçar olacaqdır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin uğurlu inkişafına qısqanclıq hissi ilə yanaşan qüvvələr var. Həmin qüvvələrin məqsədi ölkəmizin uğurlarına kölgə salmaq və nə isə xoşagəlməz bir vəziyyət yaratmaqdan ibarətdir. Amma onlar heç vaxt öz məkrli istəklərinə çatmayacaqlar.

## TOHGMİB-nın sədri Emin Həsənli: **“Müxalifət maliyyə cəhətdən xarici qüvvələrdən asılıdır”**



- Hər zaman olduğu kimi, müxalifət düşərgəsini təmsil edən şəxslər özlərini reklam etmək məqsədi ilə lazımsız aksiyalar keçirmək istəyirlər. Demək olar ki, bu aksiyaların keçirilməsi cəhdləri iki başlıca məqsədə xidmət edir. Birincisi, xaricdəki anti-Azərbaycan qüvvələr ölkəmizin inkişafından narahatdırlar və görülən işlərə kölgə salmaq məqsədilə pozucu ələbaxım müxaliflərdən istifadə edirlər. Yerli və xarici məkrli dairələr, nəyin bahasına olursa-olsun, Azərbaycanın sürətli inkişafına əngəl olmağa can atırlar. Bütün bunlar, artıq sirr deyil, ağlı başında olan hər bir azərbaycanlı bunu görür və qavrayır. İkinci məqsəd isə, xaricdən maliyyə dəstəyi əldə etməkdir. Dağıdıcı müxalifət ölkəmizin uğurlarından narahat olduqlarını bildiklərindən, onlarla əməkdaşlıq edirlər. Bununla da, məkrli qüvvələrin imkanlarından yararlanaraq, milyonlar qazanmaq fürsətini əldən vermək istəmirlər. Belələri üçün yalnız bir anlayış var: necə olur-olsun, nələr qurban verilirverilsin, ta ki o, çoxlu vəsait əldə etsin. Əminəm ki, əvvəllərdə olduğu kimi, yenə onların bu fəaliyyətləri sonda iflasa məhkumdur. Çünki onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur.

## ADİİM-nin sədri, “Avrasiya” İA-nın baş redaktoru Cavid Şahverdiyev: **“Milli Şura”dakılar Qərbin ştatdankənar əməkdaşlarıdır”**



- Qərbin ştatdankənar əməkdaşlarının bir yerə toplandığı “Milli Şura” adlanan qurum Azərbaycanda insan haqlarının, söz və fikir azadlığının qorunmasından suiistifadə edərək, fəaliyyətini ancaq mitinqlərə hesablayıb. Milli məfkurə və düşüncəyə malik olmayan “Milli Şura” yarandığı gündən, ancaq mitinq keçirməklə yadda qalmağa çalışıb. Hər keçirdiyi mitinq onlara utanc gətirsə də, biabırçılıqlarla üzləşsələr də, həya-abır etmədən, yenidən mitinq keçirmək həvəsinə düşüblər. Azərbaycan hakimiyyəti ölkədəki radikallara öz fikir və sözünü demək üçün imkanlar yaradıb və yer verib. Keçirdikləri hər bir mitinq və aksiyalarının təhlükəsizliyini qoruyub. Amma “Milli Şura” adlanan qurumun liderləri onlara ayrılan meydançanın yarısını belə doldura bilməyiblər. Bizdə elə QHT-lər var ki, keçirdikləri tədbirlərdə, azı 100-120 adam iştirak edir. Guya həmin qurumda Azərbaycan müxalifətinin tanınmış partiya liderləri, simaları toplanıb. Necə tanınmış, cəmiyyət və ictimaiyyət arasında nüfuz sahibidirlər ki, 500 adamı bir meydana yığa bilmirlər. Donorları olan Qərb belə onlara gülür. “Milli Şura” bu vaxtadək heç bir milli məsələ ilə bağlı mitinq keçirməyib. Onları qınamaq da olmur, axı Qərbin sifarişli şüarı, tezisi, milli məsələlər yox, Azərbaycan hakimiyyətinin istefası tələbidir. “Milli Şura” liderləri də tribunadan, ancaq bu şüarı səsləndirirlər - “İstefa!” Amma aralarında bir ağıllısı bu istefanın səbəblərini ictimaiyyətə çatdıra bilmir. Nə onlara verilən tribunadan, nə də əllərinin altında olan sosial şəbəkələrdən. Bu vaxtadək “Milli Şura”nın hansı bir lideri əhalinin sosial rifahının yaxşılaşması, iqtisadiyyatın gücləməsi, islahatların aparılması, Dağlıq Qarabağ münaqişəsinin həlli və s. məsələlərə bağlı öz konsepsiyalarını ictimailəşdiriblər? Tutuquşu kimi, ancaq “İstefa” şüarını səsləndirirlər. “Milli Şura” adlanan qurum heç vaxt Avropada belə bir etiraz aksiyası keçirə, hökumətə, hakimiyyətə qarşı destruktiv mövqe sərgiləyə bilməz. Onları atların ayaqları altına alar, rezin güllələrə və dəyənəklərə tuş edərdilər. Azərbaycan kimi insan haqlarının qorunduğu, söz və fikir azadlığının mövcud olduğu, əhalinin təhlükəsizliyinin təmin olunduğu bir ölkədə “Milli Şura” üçün mitinq keçirmək istəyi hansı səbəbdən yarana bilər? Cavab asandır - iğtişaş yaratmaq, əhalini hakimiyyətə qarşı qaldırmaq, Qarabağı unutdurmaq, ölkənin mövqeyini, nüfuzunu dünyada aşağı salmaq, utandırmaq və s. Amma illərdir “Milli Şura” adlanan qurum bu istəyə nail ola bilmir və olmayacaq da. Çünki Azərbaycan elə bir geosiyasi regionda yerləşir ki, hər an təhlükə başımızın üstünü ala bilər. Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasəti nəticəsində, bu təhlükələrdən qorunmuşuq. Hakimiyyətlə xalqın vəhdəti və birliyi həm xarici, həm də “Milli Şura” kimi radikallardan gələ biləcək təhlükələri, zərbələri dəf etmək gücündədir.

**_GÜLYANƏ_**

# Fuad Qəhrəmanlının Zümrüd Yağmura qarşı işgəncə fotoları ictimailəşdi

*Əli Kərimlinin müavinliyindən istefa verən sadomazoxist özünü “təmizə” çıxarmağa cəhd edir*

**_AXCP-nin sədr müavini postundan istefaya getmiş Fuad Qəhrəmanlının baş verən məlum ailədaxili olaylara, öz təbirincə, “təmizəçıxarma” cəhdləri nəticəsiz qalmaqdadır. Sosial şəbəkə vasitəsilə qız övladlarına qarşı amansızlıq, qəddarlıq nümayiş etdirmədiyini iddia edən F.Qəhrəmanlı, hətta Selcan Yağmurun dizinə xəsarət vurmasının “səbəblərini” də açıqlayıb və məlum olub ki, demə, o, masaya “nəlbəki çırparkən” həmin nəlbəki qızının dizinə dəyib. Buradan isə belə suallar yaranır:_**



1. F.Qəhrəmanlı nəlbəkini masaya çırparkən, həmin nəlbəki qırılmalı, hətta çilik-çilik olmalıydı. Lakin həmin nəlbəkinin qırılmadan çəpəki tərzdə, qızının dizinə dəyibsümüyünü “sındırması” nə qədər real görünə bilər?

2. Nəyə görə F.Qəhrəmanlı etiraf etmir ki, o, həyat yoldaşına fiziki zərbələr endirərkən, qızı Selcan isə gözləri qızmış atasını anası Zümrüd Yağmurdan aralamağa çalışarkən, o, Selcanı özündən aralamaq üçün güc tətbiq edib və dizini sındırıb?

3. Yaxud bu yazıda göstərilən və 100% Zümrüd xanıma aid olan döyülmə faktları ortada ola-ola, F.Qəhrəmanlının özünü “aydan-arı, sudan-duru” kimi təqdim edib, “mələk” obrazında göstərməsinə hansı adı vermək olar?

4. Tutaq ki, F.Qəhrəmanlı ailədaxili terror sərgiləyərkən, heç qızlarına toxunmayıbsa, onun həyat yoldaşına qarşı amansız rəftarı ictimai rəydə ona qarşı olan sadomazoxist baxışlarını dəyişəcəkmi?

### Feminist cəbhəçilər Əli Kərimlinin keçmiş müavininə qahmar çıxıb, “təmizə” çıxarmaq cəhdini ikrahla qarşılayırlar

Əlbəttə ki, bu gün, o, hər vəchlə özünə qarşı yönələn ittihamları rədd etmək üçün müxtəlif bəhanələr uyduracaq və həmin bəhanələrə kimsə inanmayacaq, necə ki, indi də inanılmır. Hətta bu gün AXCP-də sözügedən məsələ ətrafında kəskin ikitirəlik yaşanır - inananlar və inanmayanlar. Daha doğrusu, özlərini feminist kimi təqdim edən cəbhəçilərin əksəriyyəti, artıq ən sərt şəkildə, F.Qəhrəmanlıdan imtina etdiklərini, o cümlədən, partiya sədri Ə.Kərimlinin keçmiş müavininə qahmar çıxıb, “təmizə” çıxarmaq cəhdini ikrahla qarşılayırlar.

Bu arada, F.Qəhrəmanlının həyat yoldaşı Z.Yağmura verdiyi işgəncələrin fotoları da yayılaraq, ictimailəşdirilib. Belə ki, Gülnarə Mehdiyeva adlı “Facebook” istifadəçisi paylaşdığı bu fotolara kəskin ittihamedici şərh yazıb...

### “Selcan atasının həbsdən çıxdığını eşidəndə, özünü ağaca çırpdığını demişdi.

### Bir insan uşağının nifrətini qazanacaq qədər nə edə bilərdi?”



İQTİBAS: “Ortada təkcə zorakılıq yox, həm də xəyanət məsələsi olduğunu həm biz, həm cəbhəçilər yaxşı bilirdi. Fuadın məşhur məşuqəsini də tanıyırlar. Başqa qadınları da. Mən və Fidan Nazar Selcan və Sənayla söhbət edərkən, onlar uşaqlıqlarına aid elə şeylər danışırdılar ki, tüklərimiz biz-biz olurdu. Sənayın dizi qırılanda, 12 yaşı vardı. Onlar analarına qarşı olan zorakılığı görərək böyüyüblər. Əlimizdə o zorakılıqlardan bəzilərinin fotosu var idi. Bir insanı həbsdə ola-ola ifşa eləmək, boşamaq olmur. İndikindən betər “hakimiyyətə satılmış, pul almış” elan edirlər. Selcan atasının həbsdən çıxdığını eşidəndə, özünü ağaca çırpdığını demişdi. Bir insan uşağının nifrətini qazanacaq qədər nə edə bilərdi?”

### “Sağlam gənclik çürük şəxsiyyətlərin arxasınca getməməlidir”

“Zümrüd xanımı da, dünəndən bəri razı sala bilmirik ki, yaysın, danışsın” deyə statusuna davam edən G.Mehdiyeva bildirib ki, belə olan hada AXCP tamamilə məhv olacaq: “Çünki bilirik, o danışsa, AXCP şaykasının hamısı batacaq. İndi də Ə.Kərimlinin o sadistlə şəkil çəkdirib paylaşmağına söz tapa bilmirəm. Şəxsiyyət olaraq, bitmiş birini “siyasətçi olaraq bitirməməyə” çalışır. Qızlardan yalnız bu şəkilləri ala bilmişdim, özlərinə dememiş paylaşıram, amma silən deyiləm. Sağlam gənclik çürük şəxsiyyətlərin arxasınca getməməlidir”.

Yeri gəlmişkən, onu da xatırladaq ki, F.Qəhrəmanlının “Milli Şura”nın koordinasiya mərkəzinin funksioneri G.Hacıbəyli ilə eşq macərası yaşaması barədə iddialar, hələ o həbsə düşməmişdən öncədən bəlli idi. Habelə, “Milli Şura”nın mitinqlərinə qatılan həyat yoldaşı Z.Yağmurun Nardaran hadisələrində həbs edilənlərin “siyasi məhbus” kimi təqdim edilmələri zamanı, bir dəfə də olsa, əri F.Qəhrəmanlının adını çəkməməsi, hətta onun fotosunu yaxasına sancmaması faktı diqqəti cəlb etmişdi. Bütün bunlar isə, bir daha sübut edir ki, ailədaxili faşizm siyasəti yürüdən F.Qəhrəmanlı və bu məsələlərdən xəbərdar olan AXCP sədri Ə.Kərimli, sözün əsl mənasında, cəmiyyətə yararsız şəxslərdirlər və onların yalanları ifşa olunduqca, daha çox murdarlaşır, sağlam düşüncəli insanlar tərəfindən, birmənalı olaraq rədd edilirlər.

Rövşən RƏSULOV

**_P.S. Əbəs deyil ki, AXCP sədri Ə.Kərimli bu olayları pərdə arxasına keçirmək üçün mitinq məsələsini daha çox qabardır və həmin vasitə ilə özünü daha çox ifşa etmiş olur. Bu gün cəbhəçilərin ona və eks-müavininə qarşı ikrah hissləri isə günü-gündən daha çox artmağa başlayıb._**

# Fuad Qəhrəmanlının timsalında Əli Kərimli bir daha ifşa olundu

*Eynulla Fətullayev: "Əli Kərimli separatçılardan bəhrələnən hiyləgər tülküdür"*

**"Virtualaz.org" saytının rəhbəri Eynulla Fətullayev AXCP sədri Əli Kərimli ilə bağlı rəhbəri olduğu saytda tənqidi fikir yazırdı ki, Ə.Kərimli "separatçılardan bəhrələnən hiyləgər, satqın və xəyanətkardır. Gəlin Makiavellinin bir ifadəsini təkrar edib bu sualı verək: şirlə tülkünü eyni arabaya qoşmaq olarmı? Florensiya Respublikasının ikinci dəftərxanasının birinci katibi insanların siyasi xarakteri barədə düşünərkən, siyasətçiləri şirlərə və tülkülərə bənzədirdi. Şirlər tələdən, tülkülər isə canavardan qorxurlar! Nikkolo belə düşünürdü. Amma şirlə tülkünü eyni qoşquda təsəvvür etmək mümkün deyil. Ən azı, ona görə ki, Azərbaycan siyasətinin tülküsü Ə.Kərimli, müavinləri isə şirdir".**



### Riyakarlara, doğrudan da, inanmaq olmaz!

Deyəndə ki, bütün iyrənc əməllərin daşıyıcısı Ə.Kərimlidir, o zaman AXCP sədri bu reallığı qəbul etmir və özünü "aydan-arı, sudan-duru" olduğunu nümayiş etdirməyə çalışıb. Amma həqiqət yenə də özünü sübut edir. Elə bu günlərdə AXCP sədrinin sabiq müavini Fuad Qəhrəmanlı ilə bağlı baş verən hadisələr Ə.Kərimlinin iç üzünü bir daha ifşa etdi. Bu yerdə bir məqama da toxunmaq istərdim ki, neçə müddətdir özünü düşərgənin "lider siyasətçisi" adlandıraraq, sosial şəbəkələrdə oturub ağzını yana qoyub... böhtanlar yağdıran Ə.Kərimli anlamırdı ki, bu böhtanların bədəlini ödəmək ona baha başa gələcək.

Çünki bütün həyatı böyu əxlaqsız "lider" olan Ə.Kərimli, doğulduğu gündən bu günə kimi, bütün həyatı boyu "tülkü siyasəti" ilə mənəviyyatsız, əxlaqsız yaşayıb.

Bu faktoru jurnalist Eynulla Fətullayevin sosial şəbəkədə AXCP sədri Əli Kərimli ilə bağlı yazısını oxuyarkən, bir daha əmin oldum və öz özümə sual verdim ki, görəsən, Ə.Kərimli kimi iblis xislətli məxluq dünyaya gəlibmi? Var onun kimilər - isası, arifi, cəmili, gültəkini, leylası, xədicəsi və... çoxdur mənəviyyatsız və əxlaqsızlar. Hələ Ə.Kərimlinin Avropada da zibilliklərdə eşələnən "siyasi mühacir" törəmələrini demirik... Nə isə... Hə, E.Fətullayev yazır ki, "siyasətçi ikiüzlü tərzdə yalan danışa bilərmi?! Yalan danışmalı, ya danışmamalı - budur məsələ! Dünyamız qədər əbədi olan bu dilemma mənəviyyatçılarla makiavelliçiləri az qala keçilməz barrikadalar kimi ayırıb. Lakin biz hamımız, demək olar ki, siyasətdə makiavelliçilərin çoxluğu ilə barışmışıq, teatr səhnəsindəki bütün aktyorları ya şir, ya da tülkü kimi qəbul edirik. Azərbaycanın siyasi səhnəsində məğrur və əyilməz şirlərdən daha çox kürən və hiyləgər tülkülər var-gəl edir."

Bəli, AXCP sədrinin artıq keçmiş müavini F.Qəhrəmanlı olayı sübuta yetər ki, Ə.Kərimli kimi ikiüzlü kürən, hiyləgər, şərəfsiz, mənəviyyatsızlar əxlaqsız məxluqlar həqiqətdən uzaq olublar. Bu yerdə Marksizm klassikinin siyasətlə bağlı fikrini xatırlatmaq istərdim: "Siyasətdə məlum hədəf naminə, hətta şeytanın özü ilə də ittifaq bağlamaq olar, amma əmin olmaq lazımdır ki, sən şeytanı aldada biləcəksən, şeytan səni yox".

### Xəyanət düyünləri haçalandıqca...

Həqiqətən də, xəyanəti gizlətmək olmaz. Necə deyərlər, haqq nazilər, amma üzülməz. Hansı cildə girirsən, gir, hansı oyunlar, şoular göstərirsən göstər, istər iblis ol, istər şeytan, xeyri yoxdur, gec-tez, iç üzün ortaya çıxır.

Almaniyada yaşayan "Milli" ləqəbli Emin Abdullayev də F.Qəhrəmanlını və onu himayə etməyə cəhd edən AXCP sədri Ə.Kərimlini sərt tənqid edərək Ə.Kərimlinin başını soxmadığı yer qalmadığını, indi də kiminsə ailəsinə qarışmağını vicdansız, əxlaqsız, zorakılıq, F.Qəhrəmanlının isə, cinayətkar adlandırıb: "Vicdanı olan, insanlığını hələ itirməyən hər kəs Selcanı müdafiə etməlidir və anasına dəstək olmalıdır. Öz qızının dizini sındıran və həyat yoldaşının barmaqlarını qıran bir cinayətkar (Fuad Qəhrəmanlı) mütləq həbs edilməlidir və cəzasını almalıdır. Selcanın dediklərinə görə, Ə.Kərimli onun anasına boşanmaqdan vaz keçməyi məsləhət görüb, uşaqlarının gələcəyi haqqında düşünməyi məsləhət bilib. Mənə görə bu, cinayətə bəraət qazandırmaqdır və zorakılığı dəstəkləməkdir. Dizini sındıran atası ilə o qızının hansı gələcəyi ola bilər? Ə.Kərimli belə fikirlərə görə hamıdan üzr istəyib, istefa verməli idi, AXCP üzvləri F.Qəhrəmanlı ilə bərabər, Ə.Kərimlinin istefasını tələb etməli idilər".

E.Abdullayev vurğulayıb ki, AXCP-nin liderlərinin azadlıq, insan haqları, eləcə də, demokratiya haqqında danışmağa heç bir mənəvi haqları yoxdur: "Bu iyrəncliyi dəstəkləyən, müdafiə edən istənilən şəxs potensial cinayətkardır və totalitar düşüncəli məxluqdur. Biz azadlığı, ilk növbədə, gərək ailəmizdə qurmağı öyrənək. Öz ailəsində ailə üzvlərini döyəni hakimiyyətə gətirsək, bunlar bizi meydanlarda öldürərlər, dizlərimizi və barmaqlarımızı sındırarlar".

### İqbal Ağazadə: "İstər Fuad Qəhrəmanlı, istərsə də Əli Kərimlinin hərəkətləri qadına şiddət etmələri cinayətdir"

"Ümid" partiyasının sədri İqbal Ağazadə bildirib ki, istər F.Qəhrəmanlı, istərsə də Ə.Kərimlinin hərəkətləri qadına şiddət etmələri cinayətdir: "Qadına şiddət dartışılacaq mövzu deyil, bu, orta əsr təfəkküründən uzaqlaşa bilməməyin göstəricisidir. Şiddət, artıq onu ictimailəşdirmək dərəcəsinə çatıbsa, şəxsi, ailə məsələsi deyil - ictimai, sosial bəladır və o, hamı tərəfindən qınanmalıdır ki, başqaları bunu bir daha etməsin. Şiddət göstərdiyi iddia edilən şəxsi kimsə demokrat qiyafəsinə bürüyüb, müdafiəyə çalışmamalıdır. Təşkilat sədrinin müavini haqqında bu fikir deyilirsə və bu şiddət və zorakılığı üzvlərlə müzakirə olunubsa, təşkilat günahkardır. Çünki ideallar və dəyərlər uğrunda mübarizə apardığını bəyan edən bir təşkilat bu halı ört-basdır etməməli, ən yüksək vəzifə tutan üzvünün bu hərəkətinə göz yummamalı idi. Edibsə, ideallarına, mübarizəsinə, yoluna və dəyərlərinə xəyanət edib".

### Aynur Camalqızı: "Azərbaycan dilindəki söyüş və təhqiri ifadə edən bütün iyrəncliklər Əli Kərimlinin mənəviyyatsızlığı və özüdür"

"Qadın Konsensus Mərkəzi" İctimai Birliyinin sədri, jurnalist Aynur Camalqızı yazıb ki, Selcan Yağmurla qürur duyub: "Ona görə yox ki, radikal müxalifətin təmsilçisi olan F.Qəhrəmanlının qızıdır, atasının siyasi reputasiyasını yerlə-bir etdi, əsl simasını ortaya çıxardı. Yox. Ona görə ki, artıq ölkəmdə zərərli və təhlükəli mental zəncirləri dağıtmaq gücündə olan bir nəsil yetişir: təhsilli, özgür, öz hüquqlarını bilən, özünü ifadə edən yüksək dünyagörüşlü qızlarımız var. Onlar, hətta atalarının belə şiddətinə, ədalətsizliyinə, "çöldə demokrat, evdə diktator" simasızlığına baş əyməyəcək qədər güclüdürlər".

A.Camalqızı onu da bildirib ki, dünyanın heç bir yerində kişilərin əxlaqsızlığına göz yumulmur, əxlaq hesabı yalnız qadından tələb olunmur: "Çox təəssüf ki, qaragüruhcu söyüşçüllərin ağızlarından Azərbaycan dilindəki söyüş və təhqiri ifadə edən bütün iyrəncliklər tökülür. O ağızlar Ə.Kərimlinin mənəviyyatıdır".

Bəli, 24 ilə yaxın müddətdə düşərgənin qara yarası və zəlisi Ə.Kərimli hələ də Elçibəy irsinə parazitlikdə davam edir. Dəfələrlə Ə.Kərimlinin maskası yırtılıb, hər dəfə də AXCP sədrinin iyrənc əməlləri üzə çıxıb. Bu dəfə isə, AXCP sədrinin keçmiş müavini F.Qəhrəmanlının xanımı ilə qızları daha vacib faktorun üzə çıxmasına nail oldular.

Göründüyü kimi, dağıdıcılıq, ziyankarlıq, xəyanət missiyasını daim tətbiq edərək, düşərgədə qarışıqlıq yaradan Ə.Kərimlini, silahdaşları belə, heç vaxt önəmli fiqur kimi qəbul etməyib və bu gün də etmədiklərini sübuta yetirdilər. Çünki tarixi həqiqət budur. Tarixi təhrif etmək olar, amma dəyişdirmək olmaz. Artıq Əli Kərimlinin cinayət kürsüsünə oturub, etdiyi satqınlığa və cinayətlərinə görə xalq qarşısında cavab verəcək məqamıdır.

**Rəfiqə HÜSEYNOVA**



Təhmasib Novruzov

# Müxalifətin bağırtısına atüstü şərh

***Rüşvət haqqında çox deyilib, çox yazılıb. Bu barədə təzə nəsə demək, sadəcə, mümkün deyil. Amma bəzi müxalif qüvvələrin son zamanlar bu mövzunu züsusi qabartmasını sezdiyimdən, yenidən bu mövzuya müraciət etməyə içimdə bir ehtiyac duydum. Mən az-çox dünyanın tarixindən xəbərdar olan biri olaraq, gəldiyim qənaət ondan ibarətdir ki, dünya binə olandan bəri rüşvət hər zaman olub, bu gün də var, sabah da olacaq. Hələ dünyanın ən qədim mədəniyyətinin yaradıcıları kimi qəbul edilən, türk xalqlarının ulu babaları olduğu dünya tarixçiləri tərəfindən etiraf olunan şumerlərin yazılarında rüşvətin elementlərinə rast gəlinir.***

Yazılardan birində oğluna yaxşı bilik öyrətməsi üçün onun müəlliminə üzük bağışlayan salnaməçinin yazısı bunu deməyə əsas verir. Yaxud ikinci minilliyin ortalarında böyük şair Məhəmməd Füzulinin "Salam verdim, rüşvət deyildi deyə almadılar" ("Şikayətnamə" mənsur əsərindən) yazması bu bəşəri problemin o zaman da mühüm rol oynadığını göstərir. Sadəcə, son əsrlərdə cəmiyyətlərin, toplumların yeni baxışlara malik olmasından sonra rüşvət ümumi inkişafa əngəl törədən bir bəla kimi qəbul edilmiş və nəticədə inkişaf etmiş və inkişaf etməkdə olan bütün ölkələrdə iqtidarlar da, cəmiyyət də bu bəla ilə barışmazlıq nümayiş etdirirlər. Oxucum elə hesab etməsin ki, bu fikirləri yazmaqla mən rüşvətin mövcudluğunu normal hal kimi qəbul edirəm. Əsla! Sadəcə olaraq, mənə qəribə gələn odur ki, hər kəs əlini qoynuna qoyub, yalnız iqtidarın bu bəlaya qarşı mübarizə aparmasını istəyir, amma işinin xatirinə, lazım gələndə, rüşvət verməkdən də çəkinmir. İş o yerə qalıb ki, xaricdəki maraqlı dairələrdən milyonlarla rüşvət (bəli, məhz rüşvət) alıb vətəndaşı olduğu ölkəyə çamır atmaqla, ölkəni xaosa sürükləməyə can atan, hamının tanıdığı bəzi "radikal müxalifət" adlanan siyasət dəllalları da hakimiyyəti ən çox rüşvətxorluğun qarşısını ala bilməməkdə suçlayırlar. Yadımdadı, gənclik illərimdə, Sovetlər dönəmində rayonda bir mağaza satıcısını mühakimə edirdilər ki, vətəndaşdan 90 qəpik artıq pul alıb. Zavallı satıcı, məhkəmənin gedişində dözməyib dedi ki, ay möhtərəm hakim, mənə 90 qəpiyə görə prokuror beş il iş tələb edir. Bəs mənim işimi yüngülləşdirmək üçün müstəntiqin, prokurorun məndən aldığı on min manatın cəzasını kim verəcək? Dediyim odur ki, əlilərdən, cəmillərdən və onlara bənzəyən digərlərindən fərqli olaraq, rüşvətin əleyhinə o adam danışa, mübarizə apara bilər ki, o özü bu bəladan uzaq olsun. Nə qədər ki, hər kəs özü-özlüyündə rüşvətin iyrəncliyini qəbul etməyəcək, nə qədər ki, rüşvətin sadəcə ayrı-ayrı insanlar üçün deyil, ümumən cəmiyyət üçün, milli və dövlətçilik mənafeləri üçün qorxulu bir bəla olduğunu anlamayacaq, rüşvət alanlar da olacaq, rüşvət verənlər də. Çar Rusiyasından, sonrakı dönəmdə isə, Sovetlər birliyindən miras qalan dövlət səviyyəsində rüşvətin məqsədyönlü leqallaşdırılmasından sonra, müstəqillik dövründə hələ də onun, məhz dövlət maraqlarına xidmət etdiyini düşünənlər, sadəcə, "ASAN xidmət"i, son illərdə ölkədə aparılan idarəetmə sistemindəki islahatları gözləri önünə gətirsinlər. Bizə düşən isə, bu mübarizədə dövlətin və indiki iqtidarın yanında olmaqdan ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistin sualını cavablandırarkən, verdiyi bir cavabı xatırlatmaqla, bugünkü söhbətimə yekun vururam: "Rüşvət, korrupsiya elə bir bəladır ki, ona qarşı təkcə Prezident və onun komandasının mübarizə aparması yetərli deyil. Gərək cəmiyyət, hər bir vətəndaş bu mübarizədə iştrak etsin ki, dövlət də istəyini reallaşdıra bilsin!" Bu, dövlətin, iqtidarın mövqeyidir. Bəs özünü "radikal müxalifət" (?) adlandırıb, iqtidarın korrupsiyaya qurşandığına görə uzaqlaşdırdığı eks-məmurlarla birləşib, ölkənin inkişafına əngəl olmağa çalışanların mövqeyi? Bax, mövzu ilə bağlı üzərində düşünməli olduğumuz ən vacib sual budur!..

# Dünya konstitusiyalarında insan hüquqlarının müdafiəsi məsələsi

***Dövlətlərin konstitusiyaları, hüquqlara təminat verməklə yanaşı, sosial, irqi, milli və ya dini düşmənçilik hissləri oyadan təbliğat və təşviqat işlərinin aparılmasını qadağan edir. Müvafiq olaraq, sosial, irqi, milli, dini və ya dil üstünlüyünün təbliğ olunması müasir konstitusiyaların məhdudlaşdırdığı və ya qadağan etdiyi vacib məqamlardandır.***

D.Qəmbərov yazır: "Əksər demokratik ölkələr əsas insan və vətəndaş hüquqları kompleksini konstitusiya səviyyəsində reqlamentləşdirməklə yanaşı, əsas insan hüquqları ilə bağlı beynəlxalq normaların və ya standartların milli qanunvericilik qarşısında üstünlüyünü rəsmi şəkildə təsdiq edirlər. Bir sıra ölkələrin konstitusiyalarına nəzərə salmaqla, buna əmin olmaq mümkündür. Məsələn, Almaniya Federativ Respublikasının Konstitusiyasında insan, insan hüquq və azadlıqlarının qorunması istənilən hakimiyyətin öhdəliyi kimi göstərilmişdir. Almaniya Konstitusiyasında qeyd olunur: "Beynəlxalq hüququn ümumi norması federasiya hüququnun tərkib hissəsidir. Onlar qanunlar üzərində üstünlüyə malikdirlər və federasiya əhalisi üçün hüquq və öhdəlikləri ifadə edirlər. 1978-ci ildə qəbul olunmuş İspaniya Konstitusiyasında da insan ləyaqəti, onun hüquqlarının ayrılmazlığı və sərbəst inkişafı, digər insanların hüquqlarına hörmət və s. siyasi quruluşun və cəmiyyətin inkişafının əsası kimi ifadə olunmuşdur. Burada aydın şəkildə ifadə olunmuşdur ki, əsas hüquqlar və azadlıqlar haqqında müddəalar Ümumi İnsan Hüquqları Deklarasiyası və bu sahəyə aid beynəlxalq müqavilələr və razılaşmalarla uzlaşdırılmalıdır. Əlavə olaraq, qeyd olunur ki, insan hüquqlarına dair beynəlxalq müqavilələr İspaniyanın daxili qanunvericiliyinin mühüm hissəsini təşkil edirlər".

Bu paraqrafın əvvəlində nəzərdən keçirdiyimiz kimi, əsas insan hüquqları təbii, vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqlara bölünürlər. Əsas insan hüquqlarının bu qruplarının hər birinin ayrı-ayrılıqda səciyyəvi xüsusiyyətlərinin təhlil edilməsi onların mahiyyətinin dərindən dərk edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Öncə qeyd edək ki, insan hüquqlarının universal əsaslandırılması, əsasən, təbii hüquqlara söykənir. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, müasir mərhələdə təbii hüququn mənbəyi kimi insanın təbiəti deyil, insanların sosial həyat şəraitləri, üstünlük verdikləri dəyərlər və mənəvi keyfiyyətlər nəzərdən keçirilir. Hazırkı təbii-hüquqi baxışlar dünyagörüşü ideallarına söykənirlər ki, bu da, hər bir kəsdə fərqli ola bilər. Yuxarıda apardığımız təhlillərə əsasən, qeyd edə bilərik ki, təbii hüquq kifayət qədər unikal və mürəkkəb ictimai-zəruri fenomendir və əsrlər boyu ona olan maraq sənqiməmişdi, əksinə, daha da artmışdır."

L.A.Polşikova yazır: "Bununla yanaşı, bu anlayışın mahiyyətini fəlsəfi və hüquqi müstəvilərdə təhlil edərkən, onu insanın təbiətinin diktə etdiyi prinsiplərin, ideyaların, mənəvi normaların insanların dəyərlərinin məcmusu kimi müəyyənləşdirmək olar. Bu ideyalar, dəyərlər və normalar isə, hər dövr üçün özlərinin müəyyən xüsusiyyətləri ilə fərqlənmişlər və bu, yuxarıda qeyd etdiyimiz məqamı sübut edir. Yəni təbii hüquqlar daha çox insanların fərqli dünyagörüşləri ilə bağlıdır. Müasir təbii hüquq nəzəriyyələri hüquq və mənəviyyatın ayrılmaz olduğunu əsaslandırırlar. Hüquqla mənəviyyat arasındakı məntiqi və konseptual əlaqə hüququ və mənəviyyatı müəyyənləşdirməyə imkan verir. Azadlıq, ədalət və bərabərlik hüquqların dəyərləri kimi qiymətləndirilir. Yeni nəzəriyyəyə uyğun olaraq, yalnız rəsmi qəbul olunmuş hüquq real hüquq sayılır. Belə olan halda hüquq dövlət və hakimiyyət tərəfindən qəbul olunur, qorunur və qanuni gücə malik olur".

Bu məqamlardan çıxış edərək, belə qənaətə gəlmək olur ki, müasir təbii hüquq bərabər subyektlərin azadlığını ifadə edir. Azadlıq, əsasını insanın hüquqları və öhdəliklərinin təşkil etdiyi ədalət prinsipinə söykənir. Beləliklə, təbii hüquq nəzəri və praktiki cəhətdən humanizmlə əsaslandırılan vicdan azadlığı, dözümlülük kimi də nəzədən keçirilə bilər. Humanizm də, öz növbəsində, təbii hüququn dərk edilməsidir.

Əsas insan hüquqları kateqoriyasına aid olan vətəndaş hüquqları onun subyektlərinin dövlət tərəfindən qorunan və təminat verilən hüquqlara və öhdəliklərə malik olmasını ifadə edir. Vətəndaş hüquqları pozulduqda, onun daşıyıcıları məhkəmə yolu və hüquqlarını müdafiə edə bilərlər. Vətəndaş hüquqlarının başlıca səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlətin və bu hüquqların daşıyıcılarının iradəsi ifadə olunur. Dövlət hüquq daşıyıcılarının davranışlarını tənzimləyən qaydaları müəyyənləşdirir. Vətəndaş hüquqları digər əsas insan hüquqları ilə ümumi cəhətlərə malikdir. Vətəndaş hüququ dedikdə, hər bir insanın deyil, yalnız konkret dövlətlə sabit, dayanıqlı hüquqi əlaqəyə malik olan insanların maraqlarının təmin olunmasına istiqamətlənmiş mümkün davranışlarının hüquqi tənzimlənməsi başa düşülür. İnsan hüquqları isə universal kateqoriyadır. İnsan hüquqları insanın öz təbiətindən irəli gələn elementar, daha vacib rifahlardan istifadə imkanlarını və şəxsiyyətin təhlükəsiz və azad mövcudluğunu ifadə edir."

İ.O.Knyazeva yazır: "Ümumiyyətlə, vətəndaş hüququnun bir sıra səciyyəvi xüsusiyyətlərini qeyd etmək mümkündür:

- vətəndaş hüquqları bərabər iştirakçıların əmlak və qeyri-əmlak münasibətlərinin tənzimlənməsinin nəticəsi olaraq, meydana çıxırlar;
- vətəndaş hüquq - münasibətlərinin subyektləri və obyektləri fərqli xarakterlərə malik olurlar;
- pozulmuş vətəndaş hüquqlarının qorunması yalnız məhkəmə yolu ilə həyata keçirilir. Bu zaman məhkəmədə müvafiq iddianın qaldırılması tələb olunur.

İnsanın konstitusion hüquq və azadlıqları sistemindəsiyasi hüquqlar xüsusi yerə malikdirlər. Siyasi hüquqların əsas səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlət bu hüquqların reallaşdırılması prosesinə müdaxilə etməməlidir".

A.N. Babay yazır: "Dövlət insanın siyasi hüquqlarının ancaq qorunması ilə məşğul ola bilər."Qeyd edək ki, siyasi hüquqların mahiyyəti və elementləri haqqında çoxsaylı yanaşmalara rast gəlmək mümkündür.Tədqiqatçıların yanaşmaları ümumiləşdirərək, qeyd edə bilərik ki, insan istənilən halda bu və ya digər dövlətin vətəndaşıdır, cəmiyyətin üzvüdür və müvafiq olaraq, siyasi prosesin iştirakçısıdır. Bununla da, hər bir vətəndaş bu və ya digər səviyyədə dövlətin və cəmiyyətlərin siyasi həyatına müxtəlif üsullar və metodlarla təsir edir. Təbii ki, bu metodların və üsulların yaranmasını bəşəri təcrübə şərtləndirmişdir. Cəmiyyətin maraqlarının təmin olunması üçün onun hər bir üzvünün dövlət fəaliyyətinə cəlb olunması zərurəti meydana çıxır. Bu iştirakçılığı təmin etmək üçün isə, vətəndaşlara müəyyən hüquqlar sistemi verilməlidir. Həyat fəaliyyətinin müəyyən sahələrində dövlətin səlahiyyətləri məhdudlaşdırılmalıdır. Belə sahələrdən biri rolunda siyasət çıxış edir. Siyasi hüquqlar sisteminə dövlət işlərində iştirak etmək, informasiya əldə etmək, seçki hüququ, müraciət hüququ, birləşmək hüququ, söz və fikir azadlığı, sərbəst toplaşma və s. hüquqlar daxildirlər. Siyasi hüquqlar vətəndaş-cəmiyyət-dövlət qarşılıqlı münasibətlərinin vacib məqamlarını ifadə edirlər. Vətəndaşın bu münasibətlər sistemində maraqlarının təmin olunması istiqamətində fəaliyyət göstərməsini, məhz siyasi hüquqlar şərtləndirir.

Sosial-iqtisadi və mədəni hüquqlar insanın və vətəndaşın sosial-iqtisadi və mənəvi sferalarda vəziyyətini müəyyənləşdirir. Bu hüquqların ümumi əsas insan hüquq və azadlıqları sistemində yerini və rolunu müəyyənləşdirən zaman, nəzərə almaq lazımdır ki, onlar da insanın digər əsas hüquq və azadlıqları ilə qırılmaz şəkildə bağlıdılar. Bu, o deməkdir ki, insan hüquqları sistemində daha əhəmiyyətli və az əhəmiyyətli hüquqları fərqləndirmək cəhdləri yanlışdır. Müvafiq olaraq, əsas insan hüquq və azadlıqları sisteminin digər elementləri kimi sosial-iqtisadi və mədəni hüquqlar kifayət qədər ciddi əhəmiyyət kəsb edirlər. Nəzərə almaq lazımdır ki, bu hüquqlar Ümumi İnsan Hüquqları Deklarasiyasında aydın ifadəsini tapmışlar. E.B.Kiriçek yazır: "Əlavə olaraq 1966-cı ildə qəbul olunmuş "İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında" Beynəlxalq Paktda və digər beynəlxalq sənədlərdə bu hüquqlar əks olunmuşlar." D.Qəmbərov yazır: "Sosial-iqtisadi və mədəni hüquqlar bir sıra səciyyəvi xüsusiyyətlərə malikdirlər. Hər şeydən öncə, vurğulamaq lazımdır ki, onlar özlərinin hüquqi məzmunlarına görə, kifayət qədər fərqlidirlər. Belə ki, onların bəziləri mahiyyətləri etibarilə birbaşa fəaliyyət hüququ kimi nəzərdən keçirilir. Digərləri isə, subyektiv hüquqları ifadə edirlər. Bunların konkret məzmunu qüvvədə olan sahə qanunvericiliyində ifadəsini tapır və s. Sosial-iqtisadi və mədəni hüquqların vacib səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar vətəndaşlıqdan asılı olmayaraq, hər bir insana şamil olunur. Bir sıra hüquqların təsbit olunması birbaşa müvafiq öhtəliklərin müəyyənləşdirilməsi ilə bağlı olur.

Ayrı-ayrı ölkələrin konstitusiyalarındakı oxşar məqamlardan çıxış edərək, qeyd edə bilərik ki, konkret olaraq iqtisadi, hüquq və azadlıqlar sahibkarlıq və iqtisadi və əmək fəaliyyətinin digər formalarının sərbəstliyini (azadlığını) təmin edirlər. Bu hüquqlar kateqoriyasına aşağıdakı hüquqlar aid olunurlar:

- şəxsi mülkiyyət və vərəsəlik;
- torpaqdan və digər təbii resurslara sahib olma, istifadə etmə və onun üzərində sərəncam vermə;
- azad sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
- əmək və əməyə görə mükafatlandırma;

Əsas insan hüquqları sistemində mühüm yer tutan sosial hüquqlar və azadlıqlar vətəndaşların layiqli həyat təminatına və onların bazar sisteminin neqativ amillərindən müdafiə olunmasına yönəlmişdir. Demək olar ki, dünya ölkələrinin əksəriyyətinin konstitusiyalarında aşağıdakı sosial hüquq və azadlıqlar təsbit olunmuşdur:

-təminatlı olaraq əməyin minimal həddinin ödnilməsi;
-işsizlikdən müdafiə;
-yaş həddinə görə sosial təminat;
-səhhətin qorunması və tibbi yardım;
-istirahət;
-təhsil;
-mənzilə sahib olma və s.

Mədəni hüquqlar və azadlıqlar insanın və vətəndaşın sərbəst inkişafını şərtləndirir. Mədəni hüquqlarla, ayrıca götürdükdə, sosial hüquqlar arasında ciddi eynilik vardır. Belə ki, bu hüquqlar kompleksinə də təhsil almaq, ədəbi, bədii, elmi-texniki və digər yaradıcılıq növləri ilə məşğul olmaq, mədəni dəyərlərə çıxış, mədəni həyatda iştirak və azadlıqlar daxildirlər".

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **24 sentyabr**


## Havalar soyuduqca S vitamini ilə zəngin qidalara üstünlük verilməlidir



Rasionun düzgün təşkil olunmaması və qeyri-sağlam qida məhsulu müxtəlif problemlərin yaranmasına zəmin yaradır. Protein, şəkər, yağ, mineral və vitaminlər ehtiyac duyduğumuz beş əsas qida ünsürüdür. Orqanizm həmin maddələri ət, yumurta, taxıl, tərəvəz və onlardan hazırlanan müxtəlif təbii içkilərdən alır. AZƏRTAC xəbər verir ki, son illərdə aparılan araşdırmalar göstərir ki, həmin qidaların tərkibində liflərin səhhətimizin qorunması və xəstəliklərin profilaktikası baxımından əhəmiyyəti böyükdür. Yayın ən çox sevilən bostan bitkiləri qarpız və yemişin ləti həzm sistemi, qaraciyər xəstəlikləri və əsəb pozğunluğu problemlərinin aradan qaldırılmasına müsbət təsir göstərir.

Şaftalı, əncir, üzüm və gavalı kimi vitaminlərlə zəngin yay meyvələri müxtəlif xəstəliklərə qarşı mübarizədə orqanizmə kömək edir. Sulu meyvələrdən üzüm, şaftalı və gavalının çoxluq təşkil etdiyi isti yay aylarından fərqli olaraq havalar soyuduqca S vitamini ilə zəngin narıngi və portağalla qidalanmaq soyuq qış aylarına hazırlıq xarakteri daşıyır. Alma isə insanın ömrünü uzadır, ürək-damar sisteminin işinə müsbət təsir göstərir.

## Sosial şəbəkələrdə narkotikdən istifadəni təbliğ edən şəxs saxlanılıb

Sosial şəbəkələrdə bir nəfərin narkotikdən istifadəni açıq şəkildə təbliğ etməsinə dair videogörüntü yayılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məsələ ictimai rezonans doğurduğundan polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Nəticədə narkotiki təbliğ edənin Rafiq Quluzadə olması müəyyən edilib və o, saxlanılıb. Onun üzərində axtarış aparılan zaman 0,335 qram marixuana aşkarlanıb. Faktla əlaqədar toplanmış materiallar hüquqi qiymət verilməsi üçün məhkəməyə göndərilib. O, məhkəmənin qərarı ilə 29 sutka müddətində inzibati qaydada həbs edilib.

## Qaradağda avtobus drenaj xəttinə düşüb



Qaradağ rayonunda yol nəqliyyat hadisəsi baş verib. Bakı Nəqliyyat Agentliyindən (BNA) AZƏRTAC-a bildirilib ki, 149 nömrəli müntəzəm marşrut xətti üzrə hərəkət edən 99 XX 165 dövlət nömrə nişanlı avtobus yolun hərəkət hissəsindən çıxaraq drenaj xəttinə düşüb. BNA tərəfindən aparılan ilkin araşdırma zamanı məlum olub ki, hadisə 2 minik avtomobilinin avtobusun qarşısına çıxması nəticəsində baş verib. Hadisə zamanı 1 nəfərin xəsarət aldığı bildirilir. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya ixtisası üzrə VI kurs tələbəsi Əzimzadə Ofeliya Elçin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya fakültəsinin V kurs tələbəsi Vəliyeva Əfsanə Rafiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Abdullayev Abdulla Həsənqulu oğlunun adına verilmiş seriya RX 0061025 saylı Bakı şəhər, Səbail rayonu Nizami küçəsi, ev 58, 6 saylı mənzilin kupçası itdiyi üçün etibarsız sayılır.

* * *

Abdullayev Abdulla Həsənqulu oğlunun adına verilmiş seriya RX 0449370 saylı Bakı şəhər, Səbail rayonu Nizami küçəsi, 14 saylı mənzilin kupçası itdiyi üçün etibarsız sayılır.

* * *

Abbasova Aidə Yunis qızının adına olan Dəvəçi rayonu (Şabran) Rəhimli kəndində yerləşən torpaq sahəsinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## Azərbaycanın paracüdoçuları Daşkənd Qran-Prisinin birinci günündə 5 medal qazanıb



Azərbaycanın paracüdoçuları Daşkənd Qran-Prisinin birinci günündə 5 medal qazanıblar. AZƏRTAC xəbər verir ki, turnirin birinci günündə kişilər 60, 66, 73, qadınlar isə 48, 52 və 57 kiloqram çəki dərəcələrində mübarizəyə qoşulublar. Yarışa səkkizdəbir final mərhələsindən başlayan Namiq Abaslı (66 kq) Gürcüstan təmsilçisi Giorgi Kaldanini məğlub edib. İdmançımız növbəti görüşündə Viktor Rudenkonu (Rusiya) üstələyərək yarımfinala vəsiqə qazanıb. Yarımfinalda ukraynalı David Koravaya qalib gələn N.Abaslı finalda özbəkistanlı Uçqun Kuranbaev ilə qarşılaşıb. Gərgin keçən görüşdə idmançımız məğlub olaraq gümüş medalla kifayətlənib. Ramil Qasımov (73 kq) isə birinci görüşdə qazaxıstanlı Yerqali Şameyə qalib gəlib. Növbəti qarşılaşmada özbəkistanlı Feruz Sayidovu üstələyən idmançımız dörddəbir finalda Gürcüstan təmsilçisi Baçuki Şeliani məğlub edərək yarımfinala yüksəlib. Yarımfinalda Rusiya idmançısı Vasili Kutuevə uduzan R.Qasımov bürünc medal uğrunda görüşdə qazaxıstanlı Temirjan Dauleti üstələyərək turnirdə üçüncü olub.

Qadınların yarışında 57 kiloqram çəki dərəcəsində yarışan Sevda Vəliyeva yarışa dörddəbir final mərhələsindən başlayıb. Təmsilçimiz birinci görüşdə rusiyalı İrina Florovanı mübarizədən kənarlaşdırıb. Yarımfinala yüksələn S.Vəliyeva bu mərhələdə Braziliya paracüdoçusu Lusia Araujonu üstələyərək finala vəsiqə qazanıb. Finalda Özbəkistan idmançısı Parvina Səməndərova məğlub olaraq yarışı ikinci pillədə başa vurub. Bu çəki dərəcəsində dörddəbir final mərhələsində məğlub olan Afaq Sultanov təsəlliverici görüşdə Luidmila Lohatskanı, daha sonra isə L.Araujonu udaraq komandamızın hesabına üçüncü bürünc medalı yazdırıb.

Turnirdə 48 kiloqram çəki dərəcəsində çıxış edən Şahanə Hacıyeva birinci görüşdə Almaniya təmsilçisi Karmen Brussic, daha sonra isə rusiyalı Viktoriya Potapovaya qalib gələrək yarımfinala adlayıb. Yarımfinalda fransalı Sandrine Aurieres Martinetlə dueldən məğlub ayrılan paracüdoçumuz bürünc medal uğrunda görüşdə Özbəkistan təmsilçisi Lobar Xurramovanı mübarizədən kənarlaşdıraraq yarışda üçüncü olub. Bəsti Səfərova (52 kq) səkkizdəbir finalda gürcüstanlı Rusudani Qoqava, dörddəbir final mərhələsində isə çinli Yanqinq Lini məğlub edərək yarımfinala çıxıb. Bu mərhələdə Ukrayna təmsilçisi İnna Çerniakla üz-üzə gələn B.Səfərova uduzduğundan bürünc medal uğrunda mübarizə aparmalı olub. Lakin paracüdoçumuz bu mərhələdə rusiyalı Alesia Stepaniuka qalib gələ bilmədiyindən yarışı 5-ci pillədə başa vurub.

## Teymur Rəcəbov dünya kubokunun dörddəbir finalının birinci partiyasında heç-heçə edib



Xantı-Mansiyskdə şahmat üzrə dünya kuboku turnirinin dörddəbir final mərhələsinin birinci partiyaları oynanılıb. Bu mərhələdə Azərbaycan şahmatçısı Teymur Rəcəbov ABŞ təmsilçisi Cefferi Xionq ilə qarşılaşıb. Gərgin keçən görüş heç-heçə başa çatıb. Bu şahmatçıların cavab partiyaları sentyabrın 24-də keçiriləcək. Xatırladaq ki, beş şahmatçımızın qatıldığı dünya çempionatında Arkadi Naydiç almaniyalı Niklas Huşenbetə, Nicat Abbasov ABŞ təmsilçisi Leyner Dominquez Perezə, Eltac Səfərli isə komanda yoldaşı Şəhriyar Məmmədyarova uduzaraq mübarizəni dayandırıblar. Ş.Məmmədyarov isə səkkizdəbir finalda T.Rəcəbova məğlub olaraq turnirdə iştirakını başa vurub. Dünya kubokunun finalına yüksələcək zəka sahibləri 2020-ci ildə şahmat tacına iddiaçılar turnirində iştirak hüququ qazanacaqlar.

## Messi məğlubiyyətdən sonra qəzəblənib



"Barselona"nın kapitanı Lionel Messi komanda yoldaşlarına əsəbiləşib. İspaniya mətbuatının yazdığına görə, o, La Liqasının 5-ci turunda "Qranada"ya uduzduqları (0:2) görüşdə "Barselona"nın futbolçularının oyunundan narazı qalıb. Argentinalı hücumçu matçdan sonra paltardəyişmə otağında komanda yoldaşları ilə kobud şəkildə danışaraq onlardan zəif oyun görə izahat istəyib. Messi özü fasilədən dərhal sonra meydana daxil olub. O, zədəsini yeni sağaldıb. Argentinalı futbolçu mövsümün əvvəlini isə məcburiyyətdən buraxmalı olub. Qeyd edək ki, "Barselona" La Liqada 5 oyuna 7 xal toplayıb və 8-ci pillədə qərarlaşıb.

## Millimizdən İranla heç-heçə



Rusiyanın Həştərxan şəhərində təşkil olunan "Caspian Cup-2019" turnirində futzal üzrə Azərbaycan millisi ikinci oyununu keçirib. Qol.az-ın məlumatına görə, komanda bu dəfə İran yığması ilə qarşılaşıb. Oyun 2:2 hesabı ilə başa çatıb. Millimizin qolunu Amadeu vurub. Bir dəfə isə avtoqol qeydə alınıb. Futzalçılarımız turnirdə son oyununu sentyabrın 25-də, saat 15:00-da Qazaxıstan yığmasına qarşı keçirəcək. Qeyd edək ki, yığmamız turnirdə ilk matçında Rusiyaya uduzub - 1:2.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**